

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 iyul 2026-cı il, çərşənbə axşamı
№ 121 (7188)
Qiymәti 60 qəpik


# IV Şuşa Qlobal Media Forumu...




Bax səh. 2-3

# Prezident İlham Əliyev azad edilmiş ərazilərdə...

Bax səh. 4

## İqtisadi Şuranın iclasında

İyulun 10-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasında “Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı”nın layihəsi, o cümlədən, turizmin inkişaf perspektivləri və əsas prioritet tədbirlər, eləcə də “Dağ-mədən və metallurgiya sənayesinin inkişafı: mövcud vəziyyət və 2030-cu ilə perspektivləri” barədə proqramın layihəsi müzakirə olunub. Gündəlikdə olan birinci məsələ üzrə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin və ikinci məsələdə iqtisadiyyat naziri Mikayıl Cabbarovun geniş təqdimatı dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər. İclasın yekununda gündəlikdə müzakirə olunan hər iki dövlət proqramının layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

Turizmin inkişafı...

Bax səh. 7

## 14 iyuldan başlanan yol...



Bax səh. 5

## Tovuz döyüşlərindən 6 il ötür

Azərbaycanın şanlı zəfər qazandığı Vətən müharibəsinə gedən yolun əsas mərhələlərindən olan Tovuz döyüşlərindən altı il ötür. Azərbaycana qarşı təxribatçı əməllərindən əl çəkməyən Ermənistan ordusunun növbəti diversiyasının qarşısının alınması ilə başlayan beşgünlük iyul döyüşlərində rəşadətli Ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq onun çirkin niyyətinin qarşısını sərt şəkildə aldı. Tovuz döyüşlərində Azərbaycan Ordusu tərəfindən düşmənə ağır zərbələr endirilib və xeyli canlı qüvvəsi, hərbi texnikası məhv edilib.

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi intensiv atəşə tutub, daha sonra hücuma keçməyə cəhd göstəriblər. Azərbaycan Ordusunun həyata keçirdiyi operativ cavab tədbirləri nəticəsində düşmənin planı iflasa uğrayıb...

Bax səh. 5




## Kolonializmlə mübarizədə medianın rolu...

Bax səh. 6

# IV Şuşa Qlobal Media Forumu...

## Prezident İlham Əliyev Forumda iştirak edib




## "Bizim üçün mühüm meyar Qarabağın öz köklərinə qayıtmasını, bu torpaqların yiyələrinin qayıtmasını, real inkişafı göstərməkdir"

İyulun 13-də Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda IV Şuşa Qlobal Media Forumunun açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib, Forum iştirakçılarının suallarını cavablandırıb.

Moderator: Zati-aliləri, hörmətli qonaqlar, mətbuat nümayəndələri, IV Şuşa Qlobal Media Forumunda sizi çox səmimiyyətlə salamlayırıq. Əvvəlcə, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev, ayırdığınız vaxta, bu gün buradakı himayənizə və əlbəttə ki, beynəlxalq media ilə açıq və səmimi dialoq imkanına görə Sizə təşəkkürümü bildirirəm.




Bir sözlə, bu gün Forumda 53 ölkədən 160 qonaq, o cümlədən 30 xəbər agentliyinin nümayəndələri, 60-dan artıq media qurumu, bu sahədə fəaliyyət göstərən 10 beynəlxalq təşkilat və təsisat iştirak edir. Son dörd il ərzində Forum 81 ölkənin 600-ə yaxın media nümayəndəsini bir araya gətirmişdir.

Cənab Prezident, Forumun artıq dördüncü ildir ki, keçirilməsini necə görürsünüz?

Prezident İlham Əliyev: Əvvəlcə, burada, Azərbaycanda, Qarabağda, Şuşada bu cür mötəbər auditoriyanı qəbul etmək böyük şərəfdir. Forumun ideyası maraq doğuran məsələləri, qarşılıqlı surətdə narahatlıq doğuran sualları müzakirə etmək, həmçinin Qarabağ və Şuşa ilə tanış olmaq məqsədilə dünyanın müxtəlif guşələrindən media nümayəndələri üçün mühit yaratmaqdan ibarətdir. Əminəm ki, vaxt keçdikcə dövri olaraq buraya gələn qonaqlarımızın bir çoxu Qarabağın inkişafını, yenidənqurmanı görürlər. Onlar ilk dəfə gəldikləri zaman, bəlkə də yalnız dağıntıları gördülər, lakin indi şəhərləri görürlər. Onlar yeni mənzillərdə və evlərdə yaşayan insanları görürlər. Bir sözlə, bu, müxtəlif meyarların kombinasiyasıdır. Birincisi, hər dəfə, hər il Forumun mövzusu sadəcə cari çağırışları əks etdirir. İkincisi, mühit çox mehriban, çox müsbətdir və müxtəlif mediadan olan bir çox insanlar, əminəm ki, Şuşada görüşlərdən sonra yaxın dostlara çevrilirlər. Əlbəttə ki, bizim üçün mühüm meyar qərarların qəbul edilməsi prosesinə təsir göstərən, öz ölkələrində və onun hüdudlarından kənarda ictimai rəyi formalaşdıran insanlardan ibarət böyük qrupu toplamaqdır və Qarabağın öz köklərinə qayıtmasını, bu torpaqların yiyələrinin qayıtmasını, real inkişafı göstərməkdir.

Moderator: Çox sağ olun. Son dörd il ərzində Forumun necə inkişaf etdiyini görmək böyük təəssürat bağışlayır. Bir daha çox sağ olun. İndi isə müvafiq şəraiti Sizin üçün yaratmaq məqsədilə bildirim ki, informasiya heç zaman görünmədiyi qədər tez yayılır. Bununla belə, etimadı qazanmaq get-gedə daha da çətinləşir. Bu gün jurnalistlər və siyasətçilər yalan məlumatın, parçalanmanın, süni intellektin, sürətlə formalaşan rəqəmsal platformaların təsir göstərdiyi dövrdə yaşayırlar. Bu səbəbdən belə söhbətlərin və forumların əhəmiyyəti getgedə artır. Jurnalistlərin ictimaiyyəti məlumatlandırmaq kimi rolundan başqa, onların anlaşmanı qurmaq, dialoqu həvəsləndirmək və yekun nəticədə sülhə töhfə vermək kimi imkanları var. Bu səbəbdən "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" builki forumun mövzusu seçilmişdir.

Qısaca özümü təqdim edim: Mənim adım Laura Bakveldir və mən "Euronews"un yayım jurnalistiyəm. Təsəvvür edə bilərsiniz ki, növbəti bir neçə gün ərzində bizim gündəliyimiz zəngindir və biz Zati-aliləri cənab Prezidentlə açıq dialoqa başlayırıq. Növbəti bir neçə saat ərzində suallarınız üçün sözü sizlərə verəcəyik. Məndə adlardan ibarət uzun siyahı var və onlara cavab vermək üçün bizim xeyli vaxtımız olacaq. Adını çəkdiyim zaman xahiş edirəm suallarınızı qısa edin və mahiyyətə uyğun olsun ki, digərləri də vaxtdan yararlansınlar. Sosial şəbəkə kanalınızda bölüşmək istəsəniz, xahiş edirəm, bu istinaddan istifadə edin.

Beləliklə, biz ilk media nümayəndəmiz ilə başlayırıq. Mən məmnunluqla Hudson İnstitutun baş araşdırmaçısı cənab Ken Moriyasuya söz verirəm. O, buradadır. Ümid edirəm, mikrofon hazırdır.

Ken Moriyasu: Sağ olun, cənab Prezident. Mənim adım Ken Moriyasudur. Mən Hudson İnstitutunu təmsil edirəm.

Azərbaycan Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropanı birləşdirən nadir coğrafi mövqeyə malikdir. Lakin Qırmızı dənizdə və Hörmüz boğazında son pozulmalar dünyaya dəniz ticarətinin zəifliyini xatırlatdı. Sizcə, quru dəhlizlərin dəniz marşrutları qədər strateji əhəmiyyətə malik olacağı dövrə qədəm qoyuruqmu? Əgər belədirsə, Siz Azərbaycanın növbəti onillikdə rolunu necə görürsünüz? Çox sağ olun.

Prezident İlham Əliyev: Bilirsiniz, biz kifayət qədər uzun müddət ərzində bağlantılar üzərində işləmişik. Biz bəlkə də 10 ildən artıqdır çalışdıq, coğrafi mövqeyimizin üstünlüklərindən istifadə edərək, onları çoxtərəfli əməkdaşlıq üçün real platformaya çevirək. Müxtəlif meyarlar var idi ki, bizə beynəlxalq daşımalar məkanına çevrilmək imkanını yaradırdı və ya buna mane olurdular. İlk olaraq, bu, çatışmayan fiziki infrastrukturla bağlı idi və biz onu yaratmalı idik və yaratdıq. İkincisi, qonşularla qarşılıqlı əlaqələr olmadan, siz heç zaman tranzit ölkəyə çevrilməyəcəksiniz. Əgər qonşularınızla münasibətləriniz pisdirsə, bu o deməkdir ki, heç nə alınmayacaq. Avrasiyanın böyük coğrafi məkanında, Azərbaycandan Şərq və Qərb, Şimal və Cənub istiqamətlərdə geniş beynəlxalq əməkdaşlığı qurmaq, prosesi apardığımız kimi inkişaf etdirmək, məsələn, Azərbaycanın təşəbbüskar olduğu, əsas maliyyə töhfəsini verən tərəf olduğu və çoxtərəfli əməkdaşlığı təşkil edən tərəf kimi enerji layihələrimizin həyata keçirilməsi həmin meyarlar sırasındadır. Bu isə bu gün, enerji təhlükəsizliyi məsələlərinin həllində, həmçinin bir çox ölkələrə kömək edir.

Beləliklə, eyni yanaşmanı bağlantılara da tətbiq edirik. Söylədiyim kimi, fiziki infrastruktur qurulub. İndi isə biz yalnız onun genişləndirilməsi yolları üzərində çalışırıq, çünki biz gözləmirdik ki, coğrafiyamız son vaxtlar bu qədər lazımlı olacaq. Şərq və Qərbdəki qonşularla - istər Mərkəzi Asiya ölkələri, istərsə də Gürcüstan, Türkiyə və Avropa kimi yaxın qonşularımızla qarşılıqlı fəaliyyət çox yaxşıdır. Əlbəttə, bütün bunları bir araya gətirmək üçün bizə dəhlizi səmərəli edə biləcək bir çox addımları atmaq vacib idi.

Bəli, hazırda Orta Şərqdəki vəziyyət bu dəhlizi daha cəlbedici edir və əgər siz mübarizənin qaynar dövründə təkcə uçuşların xəritəsinə nəzər salsanız, görərsiniz ki, Azərbaycandan çox dar dəhliz keçir. Eyni vəziyyəti Xəzər dənizi ilə və quru ərazi ilə daşımalara da aid etmək olar. Bir sözlə, bütün həmin meyarlar Azərbaycanın əhəmiyyətini birmənalı şəkildə artırır. Xoşbəxtlikdən, biz yüklərin artan həcminin daşınmasını təmin etməyə hazır idik. Hazırda biz öz imkanlarımızı artırırıq. Dəniz ticarət limanımıza gəldikdə, hazırda o, 15 milyon ton imkanı ilə Xəzərdə ən iri limandır və onun həcmi 25 milyon tonu təmin etmək üçün artırılacaq.

Hazırda biz Avropaya və geriyə yükləri daşımaq üçün öz gəmiqayırma zavodumuzda 10 gəmini tikirik. Mərkəzi Asiya ölkələri və Avropa Komissiyası ilə sıx münasibətlərimiz hər iki istiqamətin mərkəzində dayanır və bu, həqiqətən böyük üstünlük yaradır. Əlbəttə, Azərbaycanın hər zaman əməkdaşlığa, qonşularımızı narahat edən məsələlərin həllinə yönələn siyasəti narahatlıqlarımızı aradan qaldırmağa və mühit yaratmağa imkan verir. Burada, Şuşada, Media Forumda bəhs etdiyim mühiti bir çox beynəlxalq iştirakçılar arasında yaratmağa çalışırıq və ümid edirəm ki, yaratmağa nail olmuşuq.

Moderator: Çox sağ olun. Dialoqumuzu başlamaq üçün əla sualdır.



Cənab Ken Moriyasu, bir daha çox sağ olun. İndi isə keçirik cənab Yusuf Özhana. O, Anadolu Agentliyinin vitse-prezidenti və baş redaktorudur. Bəli, mikrofonu təqdim edin. O, burada ikinci cərgədə əyləşib. Başlayaq.

Yusuf Özhan: Cənab Prezident, bu gün burada bizi qəbul etdiyinizə görə çox sağ olun. Bilmirəm, ingilis dilində bu cür kəlam var yoxsa yox, lakin türk dilində, biz bir almanın iki hissəsiyik. Beləliklə, Türkiyə və Azərbaycan dövlətləri bir almanın iki hissəsidir. Sizin Türkiyə xalqına mesajınız nə olardı? Çox sağ olun.

Prezident İlham Əliyev: Bilirsiniz, Türkiyə və Azərbaycan kimi iki ölkəyə mesaj yalnız dostluq və qardaşlıqdır. Düşünürəm və əminəm ki, Türkiyə və Azərbaycanda da insanlar sizinlə həmfikirdir. Onlar dünyanın bütün ölkələrini götürsək belə, ən yaxın ölkələrdir. Əgər siz əməkdaşlıq, siyasi, iqtisadi, enerji, bağlantılar, insanlar arasında təmaslar səviyyəsinə baxsanız, bəlkə də dünyada bir-birinə yaxın olan, bir-birinə bu qədər dəstək verən və dost olan Türkiyə və Azərbaycandan başqa digər iki dövlət tapmazsınız.

Bu, xalqlarımız, ölkələrimiz üçün böyük zənginlikdir. Biz bir yerdə olanda daha güclüyük. Bu, həmçinin regional sabitliyin və əməkdaşlığın, o cümlədən indicə qeyd etdiyim bağlantılar məsələsinin mühüm meyarıdır. Bu, təhlükəsizliyin mühüm meyarıdır, çünki burada - Şuşada, beş il əvvəl Türkiyə Prezidenti ilə mən Şuşa Bəyannaməsini imzaladıq və beləliklə, münasibətlərimiz müttəfiqlik səviyyəsinə qalxdı.

Bir sözlə, biz təkcə qardaş və dost deyilik, biz müttəfiqik. Əgər bizlərdən kiməsə xoşagəlməz və ya pis hadisə üz verərsə, digəri bütün potensialı, o cümlədən hərbi gücü ilə qardaşımızın müdafiəsinə qalxacaq. Həqiqətən real haldır və biz görürük etnik köklər, ortaq mədəniyyət və ümumi tarix ölkələrimiz üçün siyasi baxımdan bu qədər yaxın olmağa bir platforma yaradır. Əminəm ki, bilirsiniz, çox sayda hallar var ki, oxşar, kifayət qədər oxşar köklər və eyni dil, necə deyim, söz ehtiyatı elə bir platforma yaratmır. Əksinə, demək olar ki, eyni dildə danışan insanlar bəzən bir-biri ilə vuruşurlar. Eyni regionda olan insanlar bir-birini məhv edirlər. Beləliklə, Türkiyə və Azərbaycan nümunəsi qonşular tərəfindən baxılmalı və tətbiq edilməli nümunədir. Qonşular dəqiqliklə Türkiyə və Azərbaycan kimi davranmalıdırlar.

Moderator: Çox sağ olun. Çox gözəl sual idi və Prezidentin təəssürat bağışlayan bəyanatı oldu. Çox sağ olun. Davam edək. Növbəti nümayəndə cənab Kristian Auqustin Nikolesku Taqalisdir. O, senatordur, hüquqşünasdır və Rumıniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvüdür.

Kristian Auqustin Nikolesku Taqalis: Zati-aliləri, mən etiraf etmək istərdim ki, Azərbaycana üçüncü dəfədir səfər edirəm və ötən il eyni vaxtda mənə gözəl ölkənizin ən yüksək və ən gözəl dağ zirvəsinə - Heydər Zirvəsinə qalxmaq nəsib oldu. Nəinki Azərbaycanın təbii gözəlliyi, həmçinin ölkənizin innovasiya, rəqəmsal idarəçilik və bərpaolunan enerji kimi bir çox sahələrdə əldə etdiyi gözəl tərəqqi mənə xoş təəssürat bağışlayır. Son illər ərzində Azərbaycan regional və beynəlxalq səviyyədə öz strateji mövqeyini inkişaf etdirmək, onu gücləndirmək kimi maraqlı prosesdən keçdi. Bununla belə, Avropa İttifaqı ilə münasibətlər enerji təhlükəsizliyinə, regional bağlantılara və ticarətə yönələn olduqca praqmatik xarakter daşıyır.

Özünün işğal olunmuş ərazilərini azad etməklə Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü bərpa etdi. Cənab Prezident, bu cür nailiyyət Sizin bu məsələnin həllində göstərdiyiniz liderlik keyfiyyətlərinizə əsaslanır. Siz, həmçinin Azərbaycanı əsas regional iştirakçılardan birinə çevirdiniz. Beynəlxalq səhnədə nüfuzlu üzv kimi ölkəniz fəal iştirakı, əməkdaşlığa verdiyi töhfəsi ilə dialoqu təşviq edir və regionlar arasında körpülər salır. Eyni zamanda, Azərbaycan parlamentinin üzv olduğum Avropa Şurasının Parlament Assambleyası (AŞPA) ilə münasibətləri məsələsinə yenidən baxmaq zəruridir. Nəzərə alsaq ki, müxtəlif səbəblərə görə onlar dalana dirənib və əfsuslar ki, nəticədə Azərbaycanın nümayəndə heyəti Avropa Şurasının Parlament Assambleyasından çıxıb.

Ümidvar olduğumu bildirmək istərdim ki, iki tərəf arasında fərqlər aradan qalxacaq və Azərbaycanın nümayəndə heyəti AŞPA-da öz yerinə qayıdacaq. Cənab Prezident, Sizdən soruşmaq istərdim: nəzərə alsaq ki, ikitərəfli fayda var, həmin münasibətlərin yaxşılaşmasını necə görürsünüz? Fikrinizcə, Avropa təsisatı ilə daha sıx əməkdaşlıq üçün hansı addımlar atılmalıdır? Sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Əvvəlcə, Azərbaycan haqqında söylədiyiniz xoş sözlərinizə görə çox sağ olun və ölkələrimiz arasında dostluğa verdiyiniz şəxsi töhfəyə görə minnətdaram. Siz Avropa təsisatları, o cümlədən Avropa Komissiyası və Avropa Şurasının Parlament Assambleyası ilə münasibətlərimizdə bir sıra vacib məqamları qeyd etdiniz. Bildiyiniz kimi, onlarla münasibətlərdə böyük fərq var. Avropa Komissiyası ilə əvvəlki Komissiya zamanı, xüsusən də Avropa diplomatiyasının əvvəlki rəhbəri cənab Borrelin dağıdıcı rolu səbəbindən asan vaxtlarımız olmayıb. O, əslində, Avropa Komissiyası ilə Azərbaycan arasında münasibətləri demək olar ki, dağıtdı. İndi isə səbəbi məlumdur, çünki o, korrupsiyaya uğramış bəzi şəxslərlə, o cümlədən Beynəlxalq Məhkəmənin keçmiş hakimi cənab Okampo ilə qəti şəkildə əlbir olmuşdur. Okampo öz şərhlərində açıq şəkildə etiraf etmişdir ki, cənab Borrel ondan məvacib alırdı. Bununla belə, cənab Okampoya pul hazırda Ermənistanda ev dustlaqlığında olan rus-erməni oliqarxından gəlirdi.

Bir sözlə, bu, Avropa Komissiyasında mövcud olmuş anti-Azərbaycan qrupunun uzun zənciridir. Yaxşı haldır ki, cənab Borrel hazırda siyasətdə deyil. Ümid edirik, əbədi gedib. Yeni Komissiya ilə münasibətlərimiz yaxşılaşmağa başladı. Bu, xüsusən də əlaqələrin yenidən baxılması üçün qarşılıqlı böyük marağı gördüyümüzdən sonra baş verdi və biz bunları dəstəklədik. Sizə sadəcə deyə bilərəm ki, bu ilin bir neçə ayı ərzində Brüsseldən bir sıra mühüm səfər oldu. Martda Avropa İttifaqı Şurasının Prezidenti cənab Koşta, mayda Avropa diplomatiyasının rəhbəri xanım Kallas və iyulda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen Azərbaycana gəldilər.

Onların və mənim ictimaiyyətə açıqlamalarımızda hər kəs iki tərəfin əməkdaşlıq səviyyəsindən razı qaldıqlarını görə bilər. Təsvir etdiyiniz tərəfdaşlıq sahələri, əlbəttə, nəinki ikitərəfli, o cümlədən daha geniş çərçivə üçün vacibdir. Avropa Şurasının Parlament Assambleyasına gəldikdə isə əfsuslar ki, biz tamamilə başqa mənzərəni görürük və mən şəxsən təəssüf edirəm. Çünki mən 2001-ci ildə Parlament üzvü olanda Azərbaycan nümayəndə heyətinin ilk rəhbəri olmuşam və iki il orada işləmişəm. Bildiyiniz kimi, il ərzində orada dörd sessiya olur.



Bir sözlə, yaranmış vəziyyət mənim üçün xoşagələn deyil, lakin onun baş verməsinin səbəbi sualınıza cavab vermək üçün çox vacibdir. Dalandan çıxmaq üçün nə edilməlidir? 2023-cü ilin sentyabrında ərazimiz separatçı və Ermənistanın işğalçı qüvvələrindən 100 faiz azad edilənə qədər Azərbaycan AŞPA-da heç vaxt sanksiya altında olmamışdır. 2023-cü ilin sentyabrında özünümüdafiə üçün legitim hüququmuzdan istifadə edərək, ərazimizi separatçıların qalıqlarından təmizlədik. 2024-cü ilin yanvarında onlar Azərbaycan nümayəndə heyətinin akkreditasiyasını sual altına qoydular, həmçinin o, səsvermə hüququndan məhrum edildi. Bu, bir növ insan hüquqları məsələsi ilə əlaqəli deyildi. Əgər onunla bağlı olsaydı, bunu xeyli əvvəl edərdilər. Bu, sadəcə, suverenliyimizi bərpa etmək üçün gördüyümüz işlərə görə bizi cəzalandırmaq idi. Ondan sonra Azərbaycanın nümayəndə heyəti çox müdrik qərar qəbul etdi və iclaslarda iştirakını dayandırdı. Çünki əgər bizim səsvermə hüququmuz olmayacaqsa, onda nəyə görə orada olmalıyıq?

Yeri gəlmişkən, biz Avropa İnsan Hüquqları Məhkəməsinin hakimlərinə səs verməmişik və bu səbəbdən Azərbaycan məhkəmə qərarlarını tanımır, çünki biz bilmirik o insanlar kimlərdir. Biz buna səs verməmişik. İki ildən artıqdır ki, ayrı-seçkiliyə məruz qalırıq. Sizə açıq deyə bilərəm ki, biz hökumətimizdə AŞPA-da üzvlüyümüzün nəinki dondurulmasını, həmin təsisatdan tam çıxmağı da ciddi şəkildə nəzərdən keçiririk. Yəni bütövlükdə Avropa Şurasından çıxmağımızı nəzərdə tuturuq.

Lakin Avropa Şurasının Baş katibi cənab Alen Berse mənə yaxınlaşaraq bunu etməməyi xahiş etdi ki, vəziyyətin yaxşılaşdırılması üçün çıxış yolu tapılsın və mən bunu hələlik dayandırdım. Lakin əfsuslar ki, həmin vaxtdan etibarən heç nə baş vermir. AŞPA-dan Azərbaycana qarşı çox müəmmalı və ultimatum formasında bəzi tələblər var ki, onlar tamamilə qəbuledilməzdir. Əlaqələri biz pozmamışıq, onlar pozublar. Onlar bizi hər hansı legitim əsas olmadan səsvermə hüququndan məhrum etdilər. Belə olan halda nə edilməlidir? Onlar Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu bərpa etməlidirlər və ondan sonra Azərbaycanın nümayəndə heyəti qayıdacaq. Bu, dəqiqliklə dediyim kimi olmalıdır, əksinə olmalı deyil!

Biz onlara qarşı heç bir səhv addım atmamışıq. Həmin ədalətsiz hərəkəti onlar ediblər və buna görə onlar da cəsarət tapıb geriyə çəkilməlidirlər, böyük səhvə yol verdiklərini etiraf etməlidirlər. Bilirsiniz, mən məsələ ilə bağlı öz fikrimi dəfələrlə bildirmişəm. Əgər Azərbaycan Avropa Şurasını tam tərk edərsə, ölkədə bunu hətta heç kəs hiss etməyəcək. Yəni orada olmaq və ya olmamaq çox şeyi dəyişmir.

Bilmirəm, orada olmaq bəlkə də daha yaxşı olardı. Biz toqquşma axtarmırıq və xüsusən də bir vaxtda ki, nəinki Avropa Şurası Parlament Assambleyası, o cümlədən Avropa Parlamenti dövri olaraq bizə yenə də hər hansı əsas olmadan hücum çəkir. Düşünürəm ki, onların Azərbaycana bir növ qərəzi var. Beş il ərzində onlar Azərbaycanı hədəfləyən 13 qətnamə qəbul ediblər və onlardan heç biri bizim üçün vacib deyil, onlardan heç biri burada hər hansı məsələyə təsir etmir. Beləliklə, əlbəttə, həmin təsisatlarla toqquşma deyil, normal münasibətlərin olması daha yaxşıdır. Amma bir daha deyirəm ki, bu, bizim seçimimiz olmayıb. Biz Avropa Şurasına 2001-ci ildə könüllü şəkildə qoşulmuşuq.

O vaxtlar həmin təşkilat fərqli idi və ümumiyyətlə, Avropa başqa idi. Biz Avropaya o istəklə və ümidlə daxil olurduq ki, üzvlük bizə əsas məsələnin - Qarabağ münaqişəsinin həllində, suverenliyimizin bərpasında kömək edəcək. Bir daha hesab edirəm ki, həmin məsələ ilə bağlı auditoriyanın çox vaxtını almaq istəmirəm.

Bununla belə, əhatəli sualınızı nəzərə alaraq, sizi və auditoriyanı nəyin baş verdiyi və nəyin görülməli olduğu haqqında məlumatlandırmaq istədim. Biz normallaşmaya hazırıq və ilk addımı onlar atmalıdırlar. Sağ olun.

Moderator: Bu cür təfərrüatlı suala və bu cür təfərrüatlı cavaba görə çox sağ olun. Beləliklə, indi keçirik Xəzər Universitetində siyasi elmlər üzrə professor, cənab Ramiz Yunusa.

Prezident İlham Əliyev: O, Birləşmiş Ştatları təmsil edir.

Moderator: Bəli, Birləşmiş Ştatlardandır.

Prezident İlham Əliyev: Bəli, bəli. O, uzun illər orada yaşayıb.

Ramiz Yunus: Hörmətli cənab Prezident, Sizi Azərbaycanın Qarabağ regionunda yenidən görmək böyük şərəfdir. Bu cür mühüm beynəlxalq tədbirə dəvətinizə görə çox sağ olun. Mənim iki sualım var. İlk sualım Azərbaycan ilə Birləşmiş Ştatlar arasında münasibətlərə aiddir. Cənab Prezident, 907-ci düzəliş 30 ildən artıq müddətdə ABŞ Konqresi tərəfindən qəbul olunmuşdur. Bu gün həmin düzəlişi necə dəyərləndirirsiniz və onun hazırkı Prezident Trampın administrasiyası dövründə tam ləğvi üçün real imkan görürsünüzmü? İkinci sualım. Bu gün Azərbaycan orta güc və Cənubi Qafqazın lideri kimi geniş şəkildə tanınır. Fikrinizcə, cənab Prezident, kiçik dövlət və orta güc arasında bugünkü dünyada əsas fərq nədədir? Bir daha çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun, çox sağ olun. Birincisi 907-ci düzəliş haqqında deyim. Siz onu çox yaxşı bilirsiniz. Bəlkə də hər kəs onunla tanış deyil. Bu, 1992-ci ildə ABŞ Konqresinin Azərbaycana münasibətdə çox ədalətsiz addımı idi. O vaxt, Sovet İttifaqının süqutundan sonra yeni yaranan ölkələrə maliyyə yardımı formasında dəstəyin verilməsi üçün ABŞ Konqresi Azadlığa Dəstək Aktını qəbul etdi və 907-ci düzəliş ermənipərəst senatorlar tərəfindən irəli sürülmüşdür. Yeri gəlmişkən, Prezident Bayden onlardan biri idi. Həmin vaxt o, senator idi və ola bilsin, bu göstərir ki, nəyə görə bizim Bayden administrasiyası ilə bu qədər çox çətinliklərimiz oldu.

Buna səbəb təsvir edildiyi kimi, Azərbaycanın Ermənistana qarşı blokadası idi. İlk olaraq bu, düz deyil. Biz Ermənistanı blokadaya almamışıq. Ermənistan ərazimizi işğal edib və işğal olunmuş ərazilər məhz Ermənistan ilə Azərbaycan arasında yerləşir. Beləliklə, işğal olmasaydı, blokada, həmçinin olmazdı.

davamı 3-cü səhifədə

# IV Şuşa Qlobal Media Forumu...

## Prezident İlham Əliyev Forumda iştirak edib

əvvəli 2-ci səhifədə

İkincisi, bunu həmin vaxt görmək bizim üçün, əlbəttə, ağrılı idi, çünki ölkə çox yoxsul idi. Biz yeganə keçmiş sovet respublikası idik ki, ABŞ Konqresinin ayrı-seçkiliyinə məruz qaldıq. Bu gün həmin düzəliş tamamilə köhnəlib. Birincisi, Azərbaycan ilə Ermənistan arasında Prezident Trampın iştirakı ilə Ağ Evdə sülh sazişi paraflandı.

İkincisi, Azərbaycan birtərəfli olaraq Ermənistana bütün tranzit



məhdudiyyətlərini aradan qaldırdı və hazırda biz bunu etməklə 40 min tondan artıq müxtəlif yüklər Rusiya, Qazaxıstan və digər yerlərdən Ermənistana daşındı. Bundan əlavə, Azərbaycan özü Ermənistana neft məhsullarını təchiz etməyə başlayıb və bildiyimə görə artıq 10 min tondan çoxdur. Bu, xüsusən də indi - bir çox ölkələrin yanacağa çıxışdan əziyyət çəkdiyi dövrdə baş verir və Ermənistan Azərbaycanı etibarlı mənbə kimi görür. Əgər belə olmasaydı, ola bilsin, bu gün onlar bütün dünyada benzin və dizel yanacağı axtarmalı olacaqdılar.

Bir sözlə, bütün bunlar göstərir ki, həmin düzəliş tamamilə köhnəlib və tam ləğv edilməlidir. Prezident Trampın qəti mövqeyinə baxmayaraq, əfsuslar ki, vəziyyət olduğu kimi qa-



lır. Yeri gəlmişkən, ötən ilin avqustunda Vaşinqtona səfərim zamanı Ağ Evdə Prezident Tramp mənim iştirakımla həmin düzəlişin qüvvəsinin növbəti bir il üçün dayandırılması ilə bağlı sənədi imzaladı və o, hazırda işləmir, lakin onun rəmzi mənası, siyasi mənası hələ də qalır.

Düşünürəm ki, həmin düzəliş Konqres tərəfindən nə qədər tez tam ləğv edilərsə, hamımız üçün, Azərbaycan üçün bir o qədər yaxşı olar. Çünki biz artıq ayrı-seçkiliyə məruz qalmayacağıq və ABŞ Konqresi isə məsuliyyəti, səhvləri etiraf etmək bacarığını, cari geosiyasi vəziyyətə uyğun hərəkət etdiyini göstərə biləcək. Ümid edirik, bunlar baş verəcək. Amma yenə də sizə deyə bilərəm ki, bu günün Administrasiyası ilə həmin 907-ci düzəliş hər hansı mənfi təsirə malik deyil.

Siz Birləşmiş Ştatlar ilə Azərbaycan arasında münasibətlər haqqında soruşdunuz. Deyərdim ki, həmin münasibətlər Tramp Administrasiyası ilə Azərbaycan arasında əladır və biz çox şadıq ki, o əlaqələr həqiqətən strateji tərəfdaşlıq səviyyəsinə qalxıb. Ötən ilin avqust ayında Vaşinqtonda Prezident Trampla tarixi görüşüm və sonradan bu ilin yanvarında Davosdakı görüşümüz, Prezident Trampın təşəbbüskarı olduğu Sülh Şurasına Azərbaycanın təsisçi üzv kimi dəvət olunması, Vitse-prezident Cey. Di. Vensin səfəri, Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı Vitse-prezidentlə Bakıda imzalamağımız və bir çox digər meyarlar göstərir ki, hazırda münasibətlər heç zaman görmədiyimiz zirvə səviyyəsindədir. Bu gün biz strateji tərəfdaşlıq haqqında Bəyanatın bütün müddəalarının icrası üzərində fəal şəkildə işləyirik.

Xüsusən də yaratdığımız həmin işçi qruplar ticarət və sərmayələr, rəqəmsal transformasiya və süni intellekt, enerji təhlükəsizliyi və bağlantılar, müdafiə və hərbi məhsulların satışı üzərində çox fəal şəkildə çalışırlar. Birləşmiş Ştatlar Azərbaycana silah təchizatına dair bütün embarqonu aradan qaldırıb və bundan dərhal sonra eyni addımları Birləşmiş Krallıq və Avropa İttifaqının digər üzvləri atıblar. Düşünürəm ki, bunlar ikitərəfli münasibətlərimizin mahiyyətini, formasını və gələcək üçün potensialını çox yaxşı xarakterizə edir.

Orta güclə bağlı ikinci sualınıza gəldikdə, bəli, mən bəzi analitik yazıları oxuyuram və həmçinin Azərbaycanın artıq orta gücə çevrilməsi ilə əlaqədar ekspertlərin müəyyən rəyi ilə tanışam. Bununla belə, düşünürəm ki, bu cür toplantı ölkənin orta güc olmasına dair hansı meyarların dəqiq müəyyənləşdirilməsinə kömək edə bilər. Burada müxtəlif meyarlar ola bilər, çünki vahid bir meyar hələ ki, müəyyən edilməyib. Mənim fikrimcə, bu terminologiya ölkənin potensialının, böyük güclərin necə düşündüyü və ya etdiyindən asılı olmayaraq, onun öz milli maraqlarını müdafiə etmək bacarığının, əgər kimsə sizə zərər vurmaq istəyirsə, bütün potensialınızla müqavimət göstərmək qabiliyyətinin etiraf olunmasını nəzərdə tutur.

Müdafiə qabiliyyəti, özü də təkcə hərbi paradda deyil, döyüş meydanında göstərilmiş həmin qabiliyyət vacibdir. Əlbəttə, fikrimcə, mühüm meyarlardan biri hüdudlarınızdan kənarda baş verən hadisələrə təkcə bir sözünüzlə və ya bəyanatınızla təsir göstərmək qabiliyyəti də olmalıdır. Azərbaycan bunu dəfələrlə nümayiş etdirib. Eyni zamanda, bu terminologiyaya aid edilə biləcək meyarlardan biri də məsuliyyətdir. Ölkənizin daxilində və müəyyən dərəcədə bütöv regionda baş verənlərə görə olan məsuliyyətdir. Fikrimcə, sonradan heyət də bu meyara əlavələr edə biləcək. Lakin düşünürəm ki, bütün bu dediklərimi Azərbaycana aid etmək olar. Ola bilsin bu səbəbdən bir sıra ekspertlər bizi orta güc adlandırır və səmimi desəm, mən buna etiraz etmirəm.

Moderator: Çox gözəl sual idi və cavabda da mühüm məqamlar var. Buna görə Sizə çox təşəkkür edirəm.

İndi isə növbəti sualımıza keçirik. Söz İordaniyanın Kommunikasiya Nazirliyinin Baş katibi Zeyd əl-Nəvaysehə verilir.

Zeyd əl-Nəvayseh: Cənab Prezident, bu dördüncü mühüm Qlobal Forumun işində iştirak etmək üçün bizə yaradılan fürsətə görə təşəkkür edirəm. Mən öz ölkəm İordaniyaya qayıdanda böyük sürətlə inkişaf edən bu gözəl ölkə və onun hər zaman təbəssümlü, xeyirxah, qonaqpərvər xalqı haqqında ən xoş təəssüratları özümlə aparacağam. Eyni zamanda, Zati-alilərinizin və Əlahəzrət Kral II Abdullahın himayəsi altında olan ölkələrimiz arasındakı münasibətlərdən qürur duyur və bu əlaqələrin hər zaman davamlı olaraq inkişaf etməsini arzulayırıq.

Cənab Prezident, ölkəniz İslam həmrəyliyinin möhkəmləndirilməsi və gücləndirilməsi istiqamətində göstərdiyi daimi səylər çərçivəsində gələn il İslam Əməkdaşlığı Təşkilatının (İƏT) Dövlət və Hökumət Başçılarının 16-cı Zirvə Görüşünə, həmçinin İƏT İnformasiya Nazirlərinin Konfransına ev sahibliyi edəcək. Sualım belədir: Sizcə, Azərbaycanın mütəmadi olaraq ev sahibliyi etdiyi bu mötəbər tədbirlər xüsusilə dünyanın və konkret olaraq regionun yaşadıqları hazırkı gərgin atmosfer fonunda, İslam həmrəyliyinin gücləndirilməsinə necə töhfə verəcək? Təşəkkür edirəm, cənab Prezident.

Prezident İlham Əliyev: Siz də qeyd etdiyiniz kimi, bizim Əlahəzrət Kral ilə qardaşlıq münasibətlərimiz var və ölkələrimiz arasında əlaqələr də çox sıxdır. Yəqin bilirsiniz ki, bir neçə gün öncə mən İordaniyanın Baş nazirinin müavini, xarici işlər nazirini qəbul etdim. O, öz həmkarı ilə ətraflı danışıqlar apardı, daha sonra isə mənimlə görüşdə əlaqələrimizin gələcək inkişafı, regional təhlükəsizlik və regional çağırışlarla bağlı fikir mübadiləmiz oldu. Əminəm ki, Azərbaycanla İordaniya arasında əlaqələrin inkişafı uğurla davam edəcək, çünki artıq böyük iş həcmi görülüb.

Tamamilə haqlısınız ki, biz gələn il İslam Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısına ev sahibliyi edəcəyik. Xüsusilə indiki təlatümlü dövrdə bu, bizim üçün böyük məsuliyyətdir. Azərbaycan hər zaman müsəlman ölkələri arasında həmrəyliyi güclü təşviq edib. Azərbaycanda keçirilən çoxsaylı tədbirlər və irəli sürdüyümüz təşəbbüslər həmrəylik, qarşılıqlı anlaşma və birliyə xidmət edib. Zirvə Toplantısınadək hadisələrin necə cərəyan edəcəyinə baxacağıq. Təəssüf ki, bu gün biz bir o qədər həmrəyliyin şahidi olmuruq. Əksinə, biz gərginliyin artdığını, qarşılıqlı ittihamları, təkcə Körfəzdə və Yaxın Şərqdə deyil, dünyanın müxtəlif bölgələrində müharibələrin şahidi oluruq. Bu isə olduqca məyusedicidir. Çünki İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həmrəylik təhlükəsizliyin və sabitliyin əsas amilidir. Daha çox həmrəylik və qarşılıqlı anlaşma olduğu təqdirdə, çətin dönəmlərin də sayı azalacaq.

Azərbaycanın rolu hər zaman yüksək qiymətləndirilib. Biz müxtəlif dövrlərdə müxtəlif aktorların iştirakı ilə vacib rol oynamışıq. Bizim rolumuz hər zaman konstruktiv və nəticəyönümlü olmuş, gərginliyin azaldılmasına hesablanmışdır. Yeri gəlmişkən, biz bu imkanlarımızı Qoşulmama Hərəkatına sədrliyimiz dövründə nümayiş etdirdik. Bildiyiniz kimi, İslam Əməkdaşlıq Təşkilatının üzvləri həm də Qoşulmama Hərəkatının üzvləridir. 120 ölkəni birləşdirən Hərəkat Azərbaycanın sədrliyini tam dəstəklədi. Biz bütün üzv dövlətlərin yekdil qərarı ilə sədr seçildik. Üstəlik, sədrliyimizin müddəti də bütün ölkələrin yekdil qərarı ilə daha bir il uzadıldı. Bu, bir-birindən uzaq mövqelərdə dayanan tərəfləri yaxınlaşdırmaq istiqamətində oynadığımız müsbət rolun yüksək qiymətləndirilməsinin bariz nümunəsi idi. Məhz bu potensial COP29-a sədrliyimiz dövründə mühüm qərarların razılaşdırılmasında da bizə böyük dəstək oldu. Bu, daha mürəkkəb bir proses idi. Çünki tamamilə fərqli baxışlar, ziddiyyətli mövqelər və ciddi fikir ayrılıqları mövcud idi. Lakin buna baxmayaraq, biz buna nail olduq. Bu gün COP29-un irsi gələcək bütün COP konfransları və qlobal yaşıl gündəlik üçün mühüm əhəmiyyət kəsb edir. Sammitədək olan dövrdə və sammit zamanı malik olduğumuz bütün imkanları və potensialı bu məqsədlərə nail olmaq üçün səfərbər edəcəyik. Biz həmrəylik nümayiş etdirmək üçün əlimizdən gələni edəcəyik. Nə qədər uğurlu olacağımızı demək çətindir. Həm də gələn ilin yayına dünyada və regionumuzda vəziyyət necə olacaq? Bunu söyləmək də çətindir. Lakin ümid edirəm ki, İordaniya, Azərbaycan və sülhü, sabitliyi, təhlükəsizliyi öz gündəliyinin əsas prioriteti hesab edən həmfikir ölkələr səylərini birləşdirərək müsbət nəticələrə nail olacaqlar.

Moderator: Çox sağ olun. İndi isə sözü Bostondakı həmkarım Ceyn Vizerspun, “Euronews” telekanalının Yaxın Şərq, Mərkəzi Asiya və Cənubi Qafqaz üzrə idarəedici redaktoruna veririk. Buyurun, Ceyn.

Ceyn Vizerspun: Təşəkkür edirəm, Laura. Cənab Prezident, Sizinlə yenidən Şuşada görüşməkdən məmnunam. Bizi bir daha bu möhtəşəm tədbirə dəvət etdiyiniz üçün Sizə təşəkkür edirəm. Siz bir qədər əvvəl Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin və əlbəttə ki, Antonio Koştanın Azərbaycana son səfərlərindən bəhs etdiniz. Qaz ixracına gəlincə, görürük ki, Azərbaycan artıq 16 ölkəyə qaz tədarük edir. Onlardan 14-ü Avropa ölkəsidir və bu il Avstriya ilə Almaniya da həmin ölkələr sırasına qoşulub. Bu iki ölkə sizin üçün nə baxımdan xüsusi əhəmiyyət kəsb edir? İkinci sualım isə Avropa İttifaqı ilə münasibətlərə aiddir. Bu münasibətlərin gələcək inkişafını necə görürsünüz? Siz qeyd etdiniz ki, belə əlaqələr hər iki tərəf üçün qarşılıqlı fayda gətirir.

Prezident İlham Əliyev: Çox sağ olun. Sizi yenidən görməyimə çox şadam. Bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirəm. Bəli, bu ildən etibarən Almaniya və Avstriyaya qaz ixracına başlamışıq. Bu, qlobal, xüsusilə də Avropa qaz bazarında mövqeyimizi genişləndirməyə yönəlmiş ümumi strategiyamızın tərkib hissəsidir. Avropa bazarı yüksək qiymətlərin formalaşdığı, bizim üçün premium hesab edilən bazardır. Buna görə də ixrac imkanlarımızı daha da genişləndirməkdə olduqca maraqlıyıq. Bəli, hazırda biz boru kəmərləri vasitəsilə 16 ölkəyə qaz tədarük edirik və boru kəməri ilə qaz ixracının coğrafi əhatəsinə görə dünyada birinci yerdəyik.

Bu, son deyil, qarşıda əlavə imkanlar var. Hazırda Avropa İttifaqının bəzi üzv dövlətləri ilə həm yeni qaz tədarükünə başlamaq, həm də mövcud tədarük həcmlərinin artırılması istiqamətində danışıqlar aparırıq. Beləliklə, bizə hər iki istiqamətdə müraciətlər var. Bugünkü enerji bazarında etibarlı, proqnozlaşdırılabilən və alternativ mənbə olan Azərbaycanın qazı, yəqin ki, on il əvvəlkindən daha böyük əhəmiyyət kəsb edir. Bizim hasilatı və ixracı artırmaq üçün kifayət qədər potensialımız var. Cəmi bir neçə ay əvvəl AÇG-nin dərin qaz yatağından - bizim “ACG Deep Gas” adlandırdığımız layihə çərçivəsində hasilata başladıq. Eyni zamanda, təsdiq edilmiş iş proqramı və investisiya portfeli əsasında mövcud yataqlarda da hasilat artacaq.

Bununla yanaşı, bərpaolunan enerji sahəsində genişmiqyaslı işlər həyata keçirilir. Bərpaolunan enerji mənbələri artıq bizə xeyli həcmdə qaza qənaət etməyə imkan verir və gələcəkdə bu göstərici daha da artacaq. Çünki 2032-ci ilədək bərpaolunan enerji mənbələri üzrə 8 giqavat generasiya gücünə çatmağı planlaşdırırıq. Bu isə hazırda elektrik enerjisinin istehsalında istifadə etdiyimiz bir neçə milyard kubmetr qaza qənaət etməyə imkan verəcək. Beləliklə, həmin qaz həcmləri də istehlakçılar üçün əlçatan olacaq. Yəni biz iki mühüm amilə malikik: artan qaz hasilatı və ixrac potensialı, həmçinin bu qaz üçün mövcud bazar. Buna görə də aradakı boşluğu aradan qaldırmalı, xüsusilə də nəqliyyat infrastrukturunu genişləndirib modernləşdirməliyik.

Qaz nəqli infrastrukturumuz 2022-ci ildə başlayan Rusiya-Ukrayna müharibəsindən əvvəl mövcud olan şərait nəzərə alınmaqla layihələndirilmiş və inşa edilmişdi. Boru kəmərlərinin ötürmə qabiliyyəti hasilat proqnozlarımıza və qaz yataqlarının işlənməsi sürəti üzrə strategiyamıza uyğun müəyyən edilmişdi. Çünki qaz ehtiyatlarını istər 10 il, istərsə də 100 il ərzində hasil etmək mümkündür. Burada əsas məsələ ondan ibarətdir ki, bizim üçün hansı yanaşma daha məqsədəuyğundur: hasilatı onilliklər ərzində sabit səviyyədə saxlamaq, yoxsa daha böyük sərmayələr yatıraraq hasilatı qısa müddətdə əhəmiyyətli dərəcədə artırmaq.

Lakin Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Azərbaycan qazına tələbat kəskin şəkildə artdı. Avropa Komissiyası bizə müraciət edərək hasilatı mümkün qədər tez artırmaq üçün əlimizdən gələni etməyimizi xahiş etdi və biz bunu etdik. Yeri gəlmişkən, Avropa Komissiyasının Prezidentinin Azərbaycana son səfəri zamanı da qeyd olundu ki, 2022-ci ildən bəri Avropa İttifaqına qaz tədarükümüzü 65 faiz artırmışıq və bu göstərici gələcəkdə də artacaq.

Buna görə də mövcud qaz nəqli infrastrukturunun genişləndirilməsi zəruridir. Lakin bu istiqamətdə əsas maneə Avropa İttifaqının yaşıl gündəliyidir. Avropa maliyyə institutları faydalı qazıntı yanacaq layihələrinin maliyyələşdirilməsində maraqlı deyillər.

Bu baxımdan əsas sual ondan ibarətdir ki, boru kəmərlərinin ötürmə qabiliyyətinin artırılması üçün zəruri maliyyə vəsaiti haradan cəlb edilməlidir. Digər, bəlkə də daha mühüm məsələ isə uzunmüddətli müqavilələrdir. Bu barədə biz xanım Ursula Fon der Lyayenlə də ətraflı fikir mübadiləsi apardıq ki, bizim uzunmüddətli müqavilələrə ehtiyacımız var. Çünki hasilatı əhəmiyyətli dərəcədə artırmaq üçün irihəcmli investisiyalar tələb olunur. Əgər müəyyən vaxtdan sonra bizə “təşəkkür edirik, artıq qazınıza ehtiyacımız yoxdur” deyilərsə, onda biz nə edəcəyik?

Bunlarla yanaşı, bazarların şaxələndirilməsi də mühüm əhəmiyyət daşıyır. Əvvəllər heç nəzərdə tutmadığımız bir bazara - Suriyaya qaz ixracına başlamışıq və buradan yüksək tələbatın mövcud olduğu qonşu bazarlara çıxış imkanlarımız da var. Ona görə də Avropadakı tərəfdaşlarımızla münasibətlərdə bizim üçün iki məsələ xüsusi əhəmiyyət kəsb edir: uzunmüddətli müqavilələrin bağlanması və mövcud qaz nəqli sisteminin genişləndirilməsi istiqamətində birgə fəaliyyət.

Avropa Komissiyası ilə münasibətlərə gəldikdə isə bu barədə fikirlərimi artıq bölüşmüşəm. Biz bu münasibətlərin mövcud səviyyəsindən çox məmnunuq. Hesab edirəm ki, Avropa İttifaqının yüksəksəviyyəli nümayəndələrinin və Avropa Komissiyası rəhbərliyinin Azərbaycana səfərlərinin intensivliyi də misli görünməmiş xarakter daşıyır. Çünki bu ilin mart ayından iyul ayınadək ölkəmizə Avropa İttifaqı Şurasının Prezidenti, Avropa Komissiyasının Prezidenti və Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi səfər ediblər. Bütün bu səfərlər son dərəcə uğurlu keçdi, çox müsbət nəticələr oldu və həm ikitərəfli münasibətlərimiz, həm də qlobal gündəlikdə duran məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı. Yenidən Qarabağa xoş gəlmisiniz, Ceyn.

Moderator: Sual üçün söz verilir “BreitBar Nyus”dan Coşua Klayna.

Coşua Klayn: Cənab Prezident, burada olduğunuz üçün təşəkkür edirəm.

Prezident Tramp dəfələrlə bəyan edib ki, ABŞ-nin gücü və diplomatiyası Cənubi Qafqazda vəziyyətin dəyişməsində mühüm rol oynayıb. Sizcə, Prezident Tramp əvvəlki ABŞ administrasiyalarından fərqli olaraq sülhün mümkün olmasına hansı töhfələri verdi? Həmçinin qarşıdakı illərdə ABŞ-Azərbaycan münasibətlərinin inkişafını necə görürsünüz? Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Bəli, Prezident Trampın bu günə qədər və bugünkü yanaşması ilə ondan əvvəlki administrasiyaların siyasəti arasında çox ciddi fərq var idi və bu fərq bu gün də özünü göstərir. Təəssüf ki, təxminən 30 il davam etmiş işğal dövründə ABŞ administrasiyaları, ATƏT-in ozamankı Minsk qrupunun digər həmsədrləri ilə birlikdə, BMT Təhlükəsizlik Şurasının özlərinin də qəbul etdiyi qətnamələr əsasında Azərbaycan torpaqlarının işğaldan azad edilməsinə nail olmaq əvəzinə, münaqişənin dondurulması siyasətini yürüdürdülər. Onların əsas məqsədi münaqişəni dondurulmuş vəziyyətdə saxlamaq və bundan həm Azərbaycana, həm də müəyyən dərəcədə Ermənistana təsir vasitəsi kimi istifadə etmək idi. Onlar tam sinxron şəkildə fəaliyyət göstərirdi və ATƏT-in Minsk qrupunun bütün fəaliyyəti münaqişənin həllinə deyil, işğalın sonsuz olmasına xidmət edirdi.

Prezident Trampın yanaşması isə tamamilə fərqli idi. O, sülhsevər, dünyanın müxtəlif bölgələrində sülhün bərqərar olunmasına çalışan bir liderdir. Özünün də qeyd etdiyi kimi, o, səkkiz münaqişənin həllinə töhfə verib. Bu, onun xarakterini, baxışlarını və siyasətini əks etdirir.

Bizim məsələdə Prezident Trampın rolu Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzrə danışıqların yekun mərhələsində xüsusilə mühüm oldu. Prezident Tramp və onun komandası bu prosesə qoşularaq elə bir çərçivə formalaşdırdılar ki, nəticədə sülh mümkün oldu.

Onlar sülhlə bağlı narahatlıqlarımızı tam şəkildə anlayırdılar. Onlar Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin zəruriliyini aydın şəkildə dərk edirdilər və Ermənistanı da bu sülhün vacibliyinə inandırmaq istiqamətində olduqca səmərəli fəaliyyət göstərdilər. Nəticədə, Ağ Evdə Ermənistanın Baş naziri, Prezident Tramp və mənim iştirakımla keçirilən tarixi görüş zamanı birgə Bəyannamə imzalandı. Həmçinin Prezident Trampın iştirakı ilə hər iki ölkənin xarici işlər nazirləri sülh sazişini parafladılar. Qeyd etdiyim kimi, Prezident Tramp mənim iştirakımla məhdudiyyətlərin və sanksiyaların tətbiqini müvəqqəti dayandıran sənədi imzaladı. Eyni zamanda, altı ay ərzində Strateji Tərəfdaşlıq Sazişinin hazırlanması məqsədilə Birgə İşçi Qrupunun yaradılmasını nəzərdə tutan sənədi də imzaladıq.



Məhz altı ay ərzində bu iş başa çatdırıldı. Mənim təcrübəmdə ilk dəfə idi ki, ABŞ rəsmiləri verdikləri sözə bu qədər dəqiqliklə əməl edirdilər. Beləliklə, avqust ayından fevral ayınadək bütün proses uğurla tamamlandı və daha sonra Vitse-prezident Vens Bakıya səfər etdi. Həmin səfər zamanı biz Strateji Tərəfdaşlıq Bəyannaməsini imzaladıq.

Bu, həqiqətən də heyrətamiz idi. Buna inanmaq çətin idi. Bu, uzun illər yalnız arzulaya biləcəyimiz bir hadisə idi. Biz hər zaman Amerika Birləşmiş Ştatları ilə yaxşı münasibətlər qurmaq istəmişik. Lakin erməni lobbisinin təsiri, mövcud stereotiplər, Azərbaycan barədə yanlış təsəvvürlər və ölkəmizin imkanlarının lazımi səviyyədə qiymətləndirilməməsi buna mane olurdu.

Qeyd etdiyim kimi, Prezident Bayden senator olduğu dövrdə Azərbaycana qarşı sanksiyaların tətbiqi təşəbbüsünün müəlliflərindən biri idi və onun regiona baxışı da məhz belə idi. Onun yanaşmasına görə, region parçalanmış, münaqişələr və qarşıdurmalar şəraitində qalmalı idi. Belə vəziyyətdə məqsədlərinə nail olmaq daha asan olurdu. Prezident Tramp isə tamamilə fərqli şəxsdir və fərqli baxışlara malikdir. O, sülhü arzulayır və sülhü yeni imkanlar yaradan bir amil kimi görür. Bu gün isə Azərbaycan ilə Ermənistan arasında sülhün təmin olunması yeni imkanlar açır. Hazırda Prezident Tramp Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək dəhlizə öz adını verib - TRIPP. Bizdə olan məlumata görə, layihə çərçivəsində praktiki işlərə, ümid edirik ki, artıq bu il başlanılacaq. Bu layihə regionun nəqliyyat bağlılığı xəritəsini tamamilə dəyişəcək, Cənubi Qafqazda təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcək. Bizim buna böyük ehtiyacımız var. Eyni zamanda, bu, Cənubi Qafqazda qarşılıqlı etimad və konstruktiv əməkdaşlıq mühitinin formalaşmasına töhfə verəcək. Şəxsən Prezident Trampa və onun komandasına dərin minnətdarlığımızı bildiririk. Xüsusilə Stiv Uitkoffun və Arye Laytstounun adlarını qeyd etmək istərdim. Onlar Prezident Tramp ilə birlikdə Azərbaycan və Ermənistan arasında sülhün əldə olunmasında həlledici rol oynayıblar.

Moderator: Sualınıza görə çox təşəkkür edirik. İndi isə sözü bu gün bizimlə birlikdə olan “LinkedIn” şirkətinin Avropa, Yaxın Şərq və Afrika (EMEA), həmçinin Latın Amerikası regionları üzrə dövlət sektoru və NFP satışlarının rəhbəri cənab Şeymus Klensiyə veririk.

Şeymus Klensi: Təşəkkür edirəm. Sabahınız xeyir, cənab Prezident. Mən “LinkedIn”də dövlət sektoru ilə əməkdaşlığa rəhbərlik edirəm. Bu yaxınlarda biz Mərkəzi Asiya üzrə fəaliyyətimizi yerli tərəfdaşımız olan “HR Institute” vasitəsilə Azərbaycanda mərkəzləşdirdik.

Son iki il ərzində Azərbaycan Hökuməti, AZCON, UBOK və ABB Bank ilə əməkdaşlıq edirəm və bu müddətdə ölkənin iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atdığı addımların ilhamverici olduğunu müşahidə etmişəm. Bu baxımdan bir sual vermək istərdim. Sizin fikrinizcə, ölkə əmək bazarı və insan kapitalı baxımından, ilk növbədə, hansı istiqamətə diqqət yetirməlidir? “LinkedIn” kimi bir tərəfdaş bu inkişaf yolunda Azərbaycana necə dəstək verə bilər?

Prezident İlham Əliyev: Hansı tərəfdaş şirkətdənsiniz?

Şeymus Klensi: “LinkedIn”.

Prezident İlham Əliyev: Gündəliyimizdə kifayət qədər geniş məsələlər var. Onlardan hər hansı birini birinci, ikinci, üçüncü və dördüncü sıraya yerləşdirmək çətindir. Qlobal gündəliyimizdə dayanan əsas məsələlərdən biri davamlı inkişafın təmin edilməsi, Qarabağın bərpası və yenidən qurulmasının başa çatdırılması, eləcə də yeni nəqliyyat marşrutlarının və bağlantı imkanlarının formalaşmasına



xidmət edəcək bütün layihələrimizin uğurla tamamlanmasıdır. Gündəliyimizin əsas istiqamətlərindən biri də rəqəmsal transformasiyanın və süni intellektin inkişafıdır. Bu yaxınlarda mən həmin məsələlərin əlaqələndirilməsi məqsədilə xüsusi Sərəncam imzaladım və bununla da bu sahə üzrə müvafiq komissiya, birgə işçi qrup, yəni vahid şura yaradıldı. Şübhəsiz ki, enerji təhlükəsizliyi bundan sonra da qlobal gündəliyin əsas mövzularından biri olaraq qalacaq.

Ölkəmizdə bu sahədə artıq böyük işlər görülüb və işlər yekunlaşıb. Lakin qeyd etdiyim kimi, həm ənənəvi enerji resurslarımıza, həm də bərpaolunan enerji mənbələrinə tələbat artmaqda davam edəcək. Bizim bərpaolunan enerji sahəsində çox böyük potensialımız var. Təkcə Qarabağda ümumi gücü 340 meqavat olan su elektrik stansiyaları artıq istifadəyə verilib. Bundan əlavə, növbəti bir il ərzində 340 meqavat gücündə Günəş elektrik stansiyalarının tikintisi də başa çatdırılacaq. Buna görə, elektrik enerjisinin Avropa bazarına ixracı gündəliyimizin əsas istiqamətlərindən biridir. Çünki Avropa bazarının əlavə enerji resurslarına ehtiyacı var və bizim əlavə imkanlarımız var.

Əlbəttə, gündəlik fəaliyyətimizin mühüm istiqamətlərindən biri də ölkəmizin beynəlxalq səviyyədə tanıdılmasıdır. Bu işi fasiləsiz şəkildə davam etdirməli, qazandığımız nailiyyətləri, qarşımızda duran çağırışları və həyata keçirdiyimiz işləri dünya ictimaiyyətinə təqdim etməliyik.

Mövcud şəraitdə isə yəqin ki, bir nömrəli prioritet təhlükəsizlik və müdafiə qabiliyyətinin daha da gücləndirilməsidir. Çünki təhlükəsizlik məsələləri və təhdidlər bizim region üçün kitablardan oxuduğumuz anlayışlar deyil - biz bu reallıqla hər gün üzüzəyik.

Beləliklə, gündəliyimiz kifayət qədər genişdir. Bunu bir cümlə ilə ifadə etməli olsam, deyərdim ki, əsas məqsədimiz müdafiə potensialımızı gücləndirmək, milli maraqlarımızı qorumaq və mümkün qədər çox ölkə ilə praktik və səmərəli əməkdaşlıq münasibətləri qurmaqdır. Təşəkkür edirəm.

davamı növbəti sayımızda

# Prezident İlham Əliyev azad edilmiş ərazilərdə...





Azərbaycan Vətən müharibəsində işğaldan azad etdiyi ərazilərinin bərpasında da dünyaya nümunə göstərir. Son beş ildə bu ərazilərdə otuz illik işğalın kədərli nəticələrinin aradan qaldırılması, infrastruktur quruculuğu, yaşayış məntəqələrinin bərpası və məskunlaşdırılması istiqamətində böyük iş həcmi yerinə yetirilib.

**Su anbarının təməli qoyulub, SES-lərin onlayn formatda açılışı baş tutub...**

Prezident İlham Əliyev iyulun 11-də azad ərazilərə son səfəri çərçivəsində Laçında "Həkəriçay" su anbarının təməlini qoyub. Tədbirdə bildirilib ki, layihəyə əsasən Azərbaycanın hüdudlarında formalaşan Həkəri çayı üzərində ümumi tutumu 100 milyon kubmetr, faydalı həcmi isə 90 milyon kubmetr olan su anbarı yaradılacaq, həmçinin suburaxma qabiliyyəti saniyədə 8 kubmetr, uzunluğu isə 172 kilometrə yaxın magistral boru kəməri inşa ediləcək.

Bu infrastrukturun Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli, Xocavənd və Ağdam rayonları üzrə təqribən 700 min nəfəri saniyədə 2,5 kubmetr həcmində keyfiyyətli içməli su ilə təmin etmək potensialı olacaq. "Həkəriçay" su anbarından qidalanan magistral boru kəmərinin üzərində ümumi gücü 10.81 MVt olan 3 su elektrik stansiyasının (SES) tikintisi də nəzərdə tutulur.

Dövlət başçısı səfər çərçivəsində Laçında Hoçaz çayının üzərində yerləşən 14,7 meqavatlıq "Ağbulaq-1", 14,25 meqavatlıq "Ağbulaq-2" və 4 meqavatlıq "Şeylanlı" su elektrik stansiyalarının onlayn formatda açılışında iştirak edib. Dövlətimizin başçısına Laçın rayonunun enerji potensialı və stansiyaların fəaliyyəti barədə məlumat verilib. Bildirilib ki, Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonası"na çevrilməsi barədə tapşırıqlarına uyğun olaraq, "AzərEnerji" ASC tərəfindən regionda su elektrik stansiyalarının tikintisi istiqamətində işlər ardıcıllıqla davam etdirilir.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçının su ehtiyatları əsasən ölkə ərazisində formalaşır. Belə ki, Kiçik Qafqazın ölkə daxilində Tərtərçaydan sonra ikinci ən böyük çay hesab olunan Həkəriçay və onun qolları olan Hoçaz, Şəlvə, Zabux çayları üzərində indiyədək ümumi gücü 72,6 MVt olan 11 su elektrik stansiyası tikilib. Laçın rayonunun 8-10 MVt-lıq elektrik tələbat gücü tam olaraq yaşıl enerji hesabına qarşılanır. Artıq qalan enerji isə ölkə enerjisisteminə ötürülür.





Hazırda ümumi gücü 10,7 MVt olan 3 yeni SES-in tikintisi davam edir və onlar bu ilin sonunadək istismara veriləcək.

Laçın rayonunun 2040-cı il perspektivində elektrik tələbat gücünün 80 MVt olacağı gözlənilir. Mövcud və tikintisi planlaşdırılan SES layihələri nəzərə alınmaqla, rayon 15 il sonra da tam olaraq yaşıl enerji ilə təmin ediləcək.

**"Sadıqcanın evi"nin bərpadan sonra açılışı...**

Şuşa şəhərinə səfər edən Prezident İlham Əliyev iyulun 11-də tarix-memarlıq abidəsi olan "Sadıqcanın evi"nin bərpadan sonra açılışında iştirak edib. Dövlət başçısının 2022-ci ildə imzaladığı Sərəncama əsasən, Şuşa şəhərində Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar Mirzə Əsəd oğlu Sadıqın - Sadıqcanın yaşadığı evin layihələndirilməsi və bərpası məqsədilə vəsait ayrılıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ildə Şuşa şəhərində Sadıqcanın yaşadığı evə baxıblar. Bir il sonra dövlətimizin başçısı burada icra ediləcək işlərin layihə konsepsiyası ilə tanış olub və 2024-cü ildə bu tarix-memarlıq abidəsində bərpa işlərinə başlanılıb. Evmuzeydə Sadıqcanın həyat və yaradıcılığına, Azərbaycan milli musiqi irsinə və Şuşanın zəngin ədəbi-bədii mühitinə həsr olunmuş ekspozisiya sahələri, konsert zalı, muğam ekspozisiya otağı, həmçinin kafe, suvenir mağazası, qeydiyyat bölməsi və musiqi alətləri emalatxanası yaradılıb.

Dövlətimizin başçısına "Əbədiyyətin səsi" əsəri barədə məlumat verilib. Bildirilib ki, bu heykəltaraşlıq əsəri Azərbaycanın milli musiqi aləti olan tarın rəmzi-bədii interpretasiyasıdır. Abidənin müəllifi Əməkdar rəssam Rəşad Mehdiyevdir.






**Şuşada dövlət-özəl tərəfdaşlığı çərçivəsində görülən işlər...**

Prezident İlham Əliyev Şuşanın Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilmiş işlərlə də tanış olub. Şuşanın Qarabağ küçəsində dövlət-özəl tərəfdaşlığı çərçivəsində yerli investorlar tərəfindən ümumilikdə müxtəlif təyinatlı 10 bina inşa edilib. Onların arasında mehmanxana, apart hotellər, ofislər, iaşə obyektləri var. Tikinti işlərinin aparılması zamanı keyfiyyətlə yanaşı, binaların Şuşanın ümumi görünüşünə uyğun olmasına da xüsusi diqqət yetirilib. Bu layihənin icrası ilk növbədə tarixi şəhərimiz və mədəniyyət paytaxtımız olan Şuşanın inkişafı istiqamətində atılan addımların bir hissəsidir. Binaların inşası şəhərin gözəlliyinə əlavə rəng qatır, burada aparılan bərpa-yenidənqurma işlərinin həcmini göstərir. Bu, eyni zamanda, Şuşanın iqtisadi həyatının canlanmasına, şəhərin sakinlərinin və qonaqlarının rahatlığının təmin olunmasına da töhfə verir.

**"Yasəmən" otelinin yeni korpusları ilə tanışlıq...**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Şuşada Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş "Yasəmən" hotelinin yeni korpusları ilə tanış olub. Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verib. Qeyd edək ki, "Yasəmən" hotelinin açılışı 2023-cü ildə Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə olub.

Qeyd edək ki, Heydər Əliyev Fondu həmin binada layihələndirmə işləri aparıb və 2023-cü ildən - bərpa işlərindən sonra binada fəaliyyət göstərən hotelin iki korpusu artıq qonaqları qəbul edir. Hazırda isə "Yasəmən" hotelinin yeni korpusları olan daha 4 binada Heydər Əliyev Fondu tərəfindən bərpa və tikinti işləri görülüb.





**"Xankəndi" hotelinin açılışı...**

Səfər çərçivəsində dövlətimizin başçısı həmçinin "Xankəndi" hotelinin açılışında iştirak edib. Dövlətimizin başçısına "Xankəndi" Mehmanxana Kompleksinə aid "Xankəndi" hotelində yaradılmış şərait haqqında məlumat verilib. Bildirilib ki, dördmərtəbəli hotel binasında qonaqların rahat qalması üçün hərtərəfli şərait yaradılıb. Burada ümumilikdə 101 otaq var. Otaqlardan 92-si "deluxe", 4-ü "superior", 3-ü "deluxe suite" və 2-si isə "executive suite" kateqoriyalarına aiddir. Hoteldə eyni vaxtda 236 qonaq qala bilər. Burada bir sıra ictimai iaşə obyektləri, o cümlədən kafe, restoranlar və idman zalı fəaliyyət göstərəcək.

**Şuşanın Kiçik Qaladərəsi kəndində...**

Səfər çərçivəsində Prezident İlham Əliyev Şuşa rayonunun Kiçik Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub və kəndə qayıdan sakinlərlə görüşüb. Bildirilib ki, Kiçik Qaladərəsində 66 fərdi ev var. Onlardan 19-u yararsız, 47-si isə qismən yararlıdır. Bu evlərdən artıq 26-sı istismara hazırdır. Gələn il isə 21 ev hazır olacaq. İlkin mərhələdə kəndə 15 ailə (51 nəfər) qayıdıb. Bu ilin sonunadək isə daha 11 ailə (45 nəfər) qayıdacaq.

Kənddə sosial infrastrukturun yaradılması istiqamətində bir sıra işlər görülüb. Yeni qaz və su xətləri çəkilib, artezian quyusu bərpa edilib və hazırda 26 fərdi ev su şəbəkəsinə qoşulub, transformator məntəqəsi quraşdırılıb, elektrik hava xətləri bərpa olunub. Sakinlərin istirahəti üçün park və Bayraq meydanı salınıb, kənddaxili yollar asfaltlanıb.

Qeyd edək ki, Kiçik Qaladərəsi Şuşa rayonunun Qaladərəsi kənd inzibati ərazi dairəsinə daxildir və rayon mərkəzindən 40 kilometr cənub-qərbdə yerləşir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. 2023-cü ildə antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub.

Dövlətimizin başçısı kənd sakini Əsəd Əsədovun evində olub və kəndə qayıdan sakinlərlə səmimi görüşə qatılıb. Eyni zamanda, Prezident İlham Əliyevin sosial media hesablarında Şuşanın Kiçik Qaladərəsi kəndindən videoçarx paylaşılıb.

**Dövlət başçısı Quzeyxırman və Güneyxırman kəndlərində...**

Prezident İlham Əliyev iyulun 11-də Xocavənd rayonunun Quzeyxırman kəndində olub. Dövlətimizin başçısına burada Quzeyxırman və Güneyxırman kəndlərində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlər barədə məlumat verilib. Sonra Prezident İlham Əliyev hər iki kəndə qayıdan sakinlərlə görüşüb. Dövlətimizin başçısına kəndlərdə sosial infrastrukturla bağlı görülən işlər barədə məlumat verilib. Bildirilib ki, Güneyxırman Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsində yerləşir. Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ildə keçirilən antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub. Kənddə ümumilikdə 549 fərdi ev var. Onlardan da 170-i yararsız, 379-u qismən yararlıdır. Artıq 50 ev istismara hazırdır, 147 evdə isə təmir işləri davam edir. Digər 182 evin isə təmir-bərpası ilə bağlı hazırlıq işləri gedir. Bir neçə gün əvvəl kəndə 18 ailə (72 nəfər) qayıdıb. Kənddə sosial infrastruktur sahəsində bir sıra işlər görülüb, yeni qaz xətti çəkilib, mövcud xətdə isə bərpa işləri aparılıb, subartezian quyularında nasos avadanlıqları quraşdırılıb, nasos stansiyasının tikintisi davam etdirilir. Kənddaxili su şəbəkəsi yenidən qurulub, fiber-optik kabel çəkilib.

***Mübariz ABDULLAYEV***



# 14 iyuldan başlanan yol...

## Ümummilli lider Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbər seçilməsinin 57-ci ili tamam olur

1969-cu il iyulun 14-ü Azərbaycanın müasir siyasi tarixində dönüş nöqtəsi kimi qiymətləndirilir. Həmin gün Heydər Əliyevin Azərbaycan SSR-in rəhbərliyinə gəlişi dövlət idarəçiliyində və ümumən dövlətin inkişafında yeni mərhələnin başlanğıcı oldu. Bu tarix sonrakı illərdə ölkənin sosial-iqtisadi inkişafı, milli kadr potensialının formalaşdırılması və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi ilə əlaqələndirilən siyasi kursun əsasını qoyan bir hadisəyə çevrildi. Qeyd edək ki, hələ Sovet dövründə keçmiş ittifaqda yalnız aqrar respublika kimi xarakterizə olunan Azərbaycanın sənayeləşdirilməsi və müasir dövlətlətçilik ənənəsinin oturuşdurulması Ulu Öndərimizin adı ilə bağlıdır. Bu proses həm də ölkədə milli kadrların yetişdirilməsi, ana dilimizə olan münasibətin dəyişməsi, milli mədəniyyətimizin inkişafı, Azərbaycanın dünya miqyasında tanınması istiqamətində aparılan bütün fəaliyyətinin təməlinə çevrildi. Bu gün birmənalı şəkildə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyev öz genişspektrli fəaliyyətini xalqına və dövlətinə həsr edib.

**Milli kadr seçimi, Ana dili təəssübkeşliyi...**

Bəli, 1969-cu ilin 14 iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) plenumunda Heydər Əlirza oğlu Əliyevin Azərbaycan KP MK-nın birinci katibi və büro üzvü seçilməsi ölkənin iqtisadi, mədəni yüksəlişində, xalqımızın rifahının yaxşılaşmasında, eləcə də, müstəqil dövlətimizin təməlinin qoyulmasında həlledici oldu. Azərbaycan rəhbərliyinə gəlişindən dərhal sonra Onun rəhbərliyi ilə, birbaşa nəzarəti və göstərişləri əsasında, həm respublika, həm də şəhər və rayonlar səviyyəsində dövlət idarəçiliyində yeni nəfəs, yeni ruh hiss olunmağa başladı. Ölkə əhalisi Ulu Öndərə rəğbət bəsləyir, Onun gördüyü işləri dəstəkləyirdi. Onun ən çox diqqət yetirdiyi məsələlərdən biri işgüzar, xalqa sadiq, mənəvi cəhətdən saf olan kadrların seçilərək respublika, şəhər və rayonlarda rəhbər vəzifələrə təyin edilməsi idi. Düzgün kadr siyasətinə xüsusi diqqət ayıran Ulu Öndər xüsusi olaraq rəhbər vəzifələrə azərbaycanlıları cəlb edirdi.  Sovet dövrünün ideoloji təbliğatına baxmayaraq, Azərbaycançılıq hisslərinə sadiqliyini qoruyub saxlayan Ulu Öndər ölkədə Ana dilindən istifadəni təşviq etdi. Məhz Ulu Öndər tərəfindən doğma dilə verilən önəmin nəticəsi idi ki, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dili ilk dəfə olaraq rus dili ilə yanaşı, rəsmi dövlət dili kimi öz əksini tapdı.

**Müasir bünövrə...**

Xalqın milli şüurunun formalaşdırılması ilə yanaşı, Ulu Öndər ölkənin sosial-iqtisadi inkişafına da böyük diqqət ayırdı. Onun siyasi iradəsi və şəxsi nüfuzu sayəsində Bakıda həmin dövr üçün çox böyük əhəmiyyətə malik olan kondisioner zavodu inşa olundu. 1970-ci illərdə respublikada yüzlərlə yeni ictimai obyektlər, məktəb və xəstəxanalar, zavod və fabriklər tikilərək istifadəyə verildi. Bu dövrdə yaşayış binalarının sayında sürətli artım qeydə alındı, minlərlə ailəyə yeni mənzil verildi. Ümummilli Lider Heydər Əliyev sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə ölkədə elmin inkişafına da böyük diqqət yetirdi. Ulu Öndər 1970-ci illərdə minlərlə azərbaycanlı gəncin Sovetlər Birliyinin ən qabaqcıl ali təhsil ocaqlarında biliyə yiyələnməsinə nail oldu. Məhz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə SSRİ-nin müxtəlif respublikalarında oxumağa göndərilən gənclərin sayı dəfələrlə artdı. Təhsilini bitirdikdən sonra ölkəyə qayıdan həmin gənclərin böyük hissəsi müstəqil Azərbaycan Respublikasında elmin inkişafında mühüm rol oynadı.

**14 iyulun əhəmiyyəti....**

Ulu öndərin 1969-cu ildə ölkə rəhbərliyinə gəlişinin Azərbaycanın taleyində nə qədər böyük hadisə olduğunu zaman göstərdi. Belə ki, məlum olduğu kimi, Heydər Əliyevin Azərbaycanın bütün regionlarında, eləcə də, ermənilərin vaxtilə göz dikdiyi torpaqlarımızda həyata keçirdiyi genişmiqyaslı quruculuq işləri, Azərbaycan torpaqlarının hissə-hissə Ermənistana birləşdirilməsi ənənəsi qarşısına sədd çəkməsi ermənilərin və imperiya rəhbərlərinin mənfur planlarına əngəl törədirdi. Bu səbəbdən də, Ulu öndər 1987-ci ildə SSRİ rəhbərliyindən uzaqlaşdırıldı. Təsadüfi deyil ki, bundan sonra ermənilərin Azərbaycana qarşı ərazi iddialarını gerçəkləşdirmək uğrunda fəaliyyəti genişləndi, 1980-ci illərin sonlarından başlayaraq Ermənistandakı azərbaycanlılar etnik təmizlənməyə məruz qaldı. 1990-cı illərin əvvəllərində isə yenicə müstəqillik əldə edən Azərbaycan ən çətin dövrlərini yaşayırdı. Bir tərəfdən Ermənistanın ölkəmizə qarşı apardığı işğalçılıq müharibəsi, digər tərəfdən, ölkədəki hakimiyyətdaxili çəkişmələr, siyasi, iqtisadi böhran nəticəsində dövlətin mövcudluğu təhlükə altına düşmüşdü. Azərbaycan xalqı isə Ümummilli lideri, Onun ölkə üçün uzun illər gördüyü işləri unutmamışdı. Ölkənin, xalqın o cür çətin günlərində xalq bir dahak üzünü Heydər Əliyevə tutdu. 14 iyul tarixinin ən mühüm əhəmiyyətlərindən biri isə bu oldu -1969-cu ilin 14 iyulunda Azərbaycanın yenilənməsinin əsasını qoyan Heydər Əliyevin adı ən müasir tariximizə xilaskar və dövlətimizin memarı kimi düşdü. Bəli, xalqımızın 1993-cü ildə Heydər Əliyevə müraciəti 1969-cu ildən başlanan yolun davam etməsi arzusu idi...

**Tarixi missiya...**

Ulu Öndər Heydər Əliyev qısa zaman kəsiyində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. Sabitlik bərqərar edildi, nizami ordu yaradıldı, Qarabağ müharibəsində atəşkəs əldə olundu, münaqişənin dinc yolla nizama salınmasına dair danışıqlara başlandı. Eləcə də, hüquqi dövlət quruculuğu prosesinə start verildi. İqtisadiyyatın dirçəldilməsi baxımından Azərbaycanın gələcəyi üçün ən mühüm addımlardan sayılan neft müqavilələri imzalandı. 1995-ci ildə referendum yolu ilə Konstitusiya qəbul edildi. Ulu Öndər Heydər Əliyevin səyi ilə qısa zamanda Azərbaycanın beynəlxalq əlaqələri formalaşdırıldı, ölkənin dünya birliyinə inteqrasiyası prosesi başlandı.

Beləliklə, Azərbaycan bir əsrdə ikinci dəfə müstəqillik əldə etdiyi bir məqamda tarixin təkrarlanmasına - müstəqilliyin itirilməsinə yol vermədi. Məhz Ümummilli Liderimiz Heydər Əliyev müasir Azərbaycan dövlətinin varlığını qorudu. Bir çağırışla xalqın xilaskarına çevrilən Heydər Əliyev Azərbaycan qarşısında tarixi bir missiyaya imza atdı...

***Pərviz SADAYOĞLU***

# Tovuz döyüşlərindən 6 il ötür

## Bu döyüşlər şanlı zəfərə aparan yolun əsas mərhələlərindən biri idi

Azərbaycanın şanlı zəfər qazandığı Vətən müharibəsinə gedən yolun əsas mərhələlərindən olan Tovuz döyüşlərindən altı il ötür. Azərbaycana qarşı təxribatçı əməllərindən əl çəkməyən Ermənistan ordusunun növbəti diversiyasının qarşısının alınması ilə başlayan beşgünlük iyul döyüşlərində rəşadətli Ordumuz düşmənə sarsıdıcı zərbə vuraraq onun çirkin niyyətinin qarşısını sərt şəkildə aldı. Tovuz döyüşlərində Azərbaycan Ordusu tərəfindən düşmənə ağır zərbələr endirilib və xeyli canlı qüvvəsi, hərbi texnikası məhv edilib.

2020-ci il iyulun 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi intensiv atəşə tutub, daha sonra hücuma keçməyə cəhd göstəriblər. Azərbaycan Ordusunun həyata keçirdiyi operativ cavab tədbirləri nəticəsində düşmənin planı iflasa uğrayıb. Qarşı tərəf ciddi itkilər verərək geri çəkilməyə məcbur olub, mövqelərimizi ələ keçirmək cəhdləri qətiyyətlə puça çıxarılıb. Döyüşlər zamanı Silahlı Qüvvələrimizin üç hərbi qulluqçusu şəhid olub, beş nəfər yaralanıb. Ermənistan ordusu isə canlı qüvvə baxımından çoxsaylı itkilərlə üzləşib.

2020-ci il iyulun 12-də dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutub və hücuma keçməyə cəhd göstəriblər. Lakin görülən adekvat tədbirlər nəticəsində düşmənə ciddi zərbə endirilib və o itki verərək geri oturdulub. Beləliklə, Ermənistan silahlı birləşmələrinin Azərbaycan Ordusunun mövqelərini ələ keçirməsi cəhdlərinin qarşısı qətiyyətlə alınıb və hər hansı ərazi itkisinə yol verilməyib. Döyüşdə düşmənin hücumunun qarşısını alarkən Ordumuzun üç hərbi qulluqçusu şəhid olub, beş nəfər isə yaralanıb. Ermənistan ordusunun şəxsi heyəti isə həmin döyüşlərdə çoxsaylı itki verib.

İyulun 13-nə keçən gecə Ermənistan hərbi birləşmələri Tovuz istiqamətində gərginliyi artırmaq məqsədilə iriçaplı pulemyotlardan, qumbaraatanlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından da istifadə etməklə Ordumuzun mövqelərinə, o cümlədən Tovuz rayonunun Ağdam kəndinə minaatanlardan yenidən atəş açıb. Düşmənin bu təxribatlarına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri görülüb. Artilleriya, minaatan və tankların tətbiqi ilə gedən gecə döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin dəqiq atəşi ilə qarşı tərəfin dayaq məntəqəsi, artilleriya qurğuları, avtomobil texnikası və canlı qüvvəsi məhv edilib. Bölmələrimizin endirdiyi sarsıdıcı zərbələr nəticəsində düşmən xeyli itki verib.

İyulun 13-də Prezident İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. Bölmələrimiz düşmənin fəaliyyətinin qarşısının alınması məqsədilə cəza tədbirləri görüblər. Təxribatı davam etdirmək məqsədilə mövqelərimizə hücuma keçməyə cəhd göstərən qarşı tərəfin bu niyyətinin də qarşısı alınıb. Düşmən itkiləri barədə məlumatları gizlədib. Azərbaycan tərəfi heç bir ərazi itkisi verməyib. Döyüşlər zamanı dörd hərbi qulluqçumuz şəhid olub. Azərbaycan Ordusunun bölmələri şəhidlərimizin qanını yerdə qoymayıblar. Elə həmin gün Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuz rayonunun Ağdam və Dondar Quşçu kəndlərini minaatanlardan və toplardan atəşə tutublar. Düşmənin bütün təxribatlarına qarşı qoşunlarımız tərəfindən daha sərt cavab tədbirləri həyata keçirilib. Onun bir neçə hərbi obyekti və texnikası, həmçinin atəş mövqeləri, radiolokasiya stansiyası, şəxsi heyəti, tabor qərargahı və hərbi infrastrukturu bölmələrimizin dəqiq atəşi ilə darmadağın edilib.

Şiddətli döyüşlər iyulun 13-dən 14-nə keçən gecə və səhər saatlarında Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu sahəsində davam edib. Düşmənin aktiv fəaliyyətinin qarşısının alınması məqsədilə görülən cəza tədbirləri nəticəsində ona məxsus müxtəlif təyinatlı hərbi texnika, döyüş vasitələri, komanda məntəqəsi, müdafiəsinin dərinliyindəki ehtiyatlar və canlı qüvvəsi məhv edilib. İki sutka ərzində qarşı tərəfə sarsıdıcı atəş zərbələri endirilib. Tovuz rayonu istiqamətində gedən döyüşlər zamanı böyük itki verən düşmən geri çəkilib.




İyulun 14-də Ermənistan silahlı birləşmələri Tovuz rayonunun Ağdam, Əlibəyli və Dondar Quşçu kəndlərini iriçaplı silahlardan və artilleriya qurğularından atəşə məruz qoyub. Həmin gün döyüş zamanı müdafiənin ön xəttindəki Azərbaycan Ordusunun general-mayoru Polad Həşimov və polkovnik İlqar Mirzəyev, eləcə də düşmən hücumunun qarşısını alarkən beş hərbi qulluqçumuz qəhrəmancasına şəhid olublar. Bu, Azərbaycan Ordusunun general və digər yüksək rütbəli zabitlərinin əsl vətənpərvərliyini, cəbhənin ön xəttində döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetməsini dünyaya nümayiş etdirib. Həmin gün bu istiqamətdə ağır döyüşlər gedib. Qarşı tərəf mülki əhalini və yaşayış məntəqələrimizi də atəşə tutub. Prezident, Ali Baş Komandan İlham Əliyev Tovuzda baş verən hadisələri Ermənistanın növbəti təxribatı adlandırıb və Azərbaycanın öz ərazi bütövlüyünü qoruyacağını qətiyyətlə ifadə edib.

Eyni gün düşmənə qarşı həyata keçirilən cavab tədbirləri davam edib. Azərbaycan Ordusu şəhidlərimizin qisasını tezliklə alıb. Həmişə olduğu kimi, bu dəfə də vəziyyət gərginləşdikdə qarşı tərəf dərhal yaşayış məntəqələrimizə atəş açmağa başlayıb. Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində açdığı artilleriya atəşi nəticəsində rayonun Ağdam kəndinin sakini həlak olub. Ermənistan hərbi birləşmələrinə məxsus pilotsuz uçuş aparatı vurulduqdan sonra düşmənin atəş mövqeyindəki artilleriya qurğusu döyüş heyəti ilə birlikdə bölmələrimizin sərrast atəşi ilə yerlə-yeksan edilib. Həmçinin düşmənin aktiv döyüş fəaliyyətinin qarşısının alınması məqsədilə onun artilleriya divizionunun idarəetmə məntəqəsi milli ordumuzun bölmələrinin dəqiq atəşi ilə sıradan çıxarılıb.

Bir gün sonra görülən cəza tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinə məxsus döyüş texnikası və daha bir bölüyün dayaq məntəqəsi məhv edilib. Düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, snayper tüfənglərindən, minaatanlardan və digər artilleriya qurğularından da istifadə edərək atəş açsa da, cavab atəşi ilə susdurulub. Tovuz rayonu istiqamətində mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə məruz qoyan qarşı tərəfin bölmələrinin uzunmüddətli atəş nöqtələri və dayaq məntəqəsi yerlə-yeksan edilib.

Tovuz döyüşlərinin mühüm əhəmiyyəti xalqımızın Ali Baş Komandanın rəhbərliyi ilə düşmənə qarşı qəhrəmancasına döyüşən ordumuzla milli həmrəylik nümayiş etdirməsi idi. Belə ki, iyulun 14-dən 15-nə keçən gecə on minlərlə gənc paytaxtımızda yürüş edərək Azərbaycan Ordusuna dəstəyini göstərib. Növbəti günlərdən başlayaraq, çoxsaylı azərbaycanlı gənc ordu sıralarına yazılmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin bölmələrinə müraciət edib.

İyulun 16-da səhər mövqelərimizə yenidən hücum etməyə cəhd göstərən düşmən Tovuz rayonunun Ağdam, Dondar Quşçu və Vahidli kəndlərini iriçaplı silahlar və minaatanlardan atəşə tutub. Lakin qarşı tərəf yenə cavab atəşi ilə susdurulub. İyulun 17-də isə Tovuz rayonu istiqamətində nisbi sakitlik olsa da, ümumilikdə gərginlik davam edib.

Beləliklə, Azərbaycan Ordusunun yüksək peşəkarlığının daha bir örnəyi olan Tovuz döyüşləri zamanı Silahlı Qüvvələrimizin 12 hərbi qulluqçusu şəhidlik zirvəsinə ucalıb və 1 mülki şəxs həlak olub. Xalq bu döyüşlər zamanı şəhidlik zirvəsinə ucalan öz mərd, vətənsevər oğullarını böyük izdihamla son mənzilə yola salıb. Bu döyüşlərdə düşmənin isə 100-dən çox hərbçisi məhv edilib, döyüş texnikası sıradan çıxarılıb.

Tovuz döyüşlərində qazanılan üstünlük, nümayiş etdirilən qətiyyət və xalqla ordunun yaratdığı sarsılmaz birlik cəmi iki ay yarım sonra Azərbaycanın taleyini dəyişən tarixi hadisələrin əsasını təşkil etdi. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başladı. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən 44 günlük Vətən müharibəsində Silahlı Qüvvələrimiz işğal altında olan torpaqları azad edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. 2023-cü ilin sentyabrında birgünlük antiterror tədbirləri nəticəsində isə Qarabağda erməni separatizminə son qoyuldu, suverenliyimiz tam bərpa edildi. Bu tarixi Qələbələr Azərbaycanın hərb salnaməsinə qızıl hərflərlə yazıldı.

***Nardar BAYRAMLI***

# Azad Şuşada dünya mediası ilə açıq dialoq

## Şuşa Qlobal Media Forumu mühüm platformaya çevrilib




Hazırda Azərbaycan mühüm bir aktor kimi regional və qlobal miqyasda yüksək fəallıq nümayiş etdirir və beynəlxalq həmrəyliyin möhkəmləndirilməsini hədəfləyən müxtəlif təşəbbüslər irəli sürür. O cümlədən respublikamız son illərdə dünya gündəliyinin mühüm məsələləri ilə bağlı aktual müzakirələrin aparıldığı ayrı-ayrı beynəlxalq platformalara uğurla ev sahibliyi edir ki, bunlardan biri də ənənəvi olaraq keçirilən Şuşa Qlobal Media Forumudur.

Qeyd edək ki, 2022-ci ildə ilk dəfə “Mediada qlobal trendlər, yeni çağırışlar” mövzusunda Beynəlxalq Media Forumu keçirilib. 2023-cü ildən etibarən bu təşəbbüs Şuşa Qlobal Media Forumu formatında davam etdirilir. Dünən uca dağlar qoynunda qərar tutan azad Şuşada Prezident İlham Əliyevin iştirakı ilə IV Şuşa Qlobal Media Forumu işinə başlayıb.

### I forumdan IV forumadək keçilən yol

I Şuşa Qlobal Media Forumu 2023-cü il iyulun 21-də “Heydər Əliyev İli” çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı təşkil olunub. İlk forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media qurumu, həmçinin 60 yerli media rəhbəri və nümayəndəsi iştirak edib. “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda keçirilən forumda tanınmış və nüfuzlu beynəlxalq media rəhbərləri, ekspertləri müasir dövrdə jurnalistika və kommunikasiyada yeni alətlər, rəqəmsal transformasiya, yeni informasiya mühitində media menecmenti və dayanıqlı media biznes modellərinin yaradılması, mediada istehlak tendensiyaları və media savadlılığı, dezinformasiya və “feyk nyus”la mübarizə üsulları, jurnalistlərin təhlükəsizliyi və digər məsələləri müzakirə ediblər. Eyni zamanda, forumda Qoşulmama Hərəkatı Media platforması təşəbbüsü irəli sürülüb.

2024-cü il iyulun 20-də “Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda keçirilən II Şuşa Qlobal Media Forumunda 50-yə yaxın ölkədən 150-dən çox xarici qonaq, 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumu iştirak edib. Forum çərçivəsində müxtəlif mövzularda 4 panel sessiya təşkil olunub.




Sayca üçüncü forum 2025-ci il 19-21 iyul tarixlərində Xankəndi və Şuşa şəhərlərində keçirilib. “Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi” mövzularını əhatə edən III Forumda 52 ölkədən 140 qonaq, 30-a yaxın informasiya agentliyinin və 80 media qurumunun nümayəndələri iştirak ediblər. Forum çərçivəsində 3 panel sessiya, “Süni intellekt dövründə jurnalistika: Avtomatlaşdırma şəraitində həqiqətin qorunması” mövzusunda təkbətək görüş təşkil olunub.

Ümumilikdə, 81 ölkədən 600-ə yaxın media rəhbərini, jurnalisti, eksperti və rəsmi şəxsi bir araya gətirən I, II və III forumlarda informasiya təhlükəsizliyi, media savadlılığı, süni intellekt, rəqəmsal transformasiya, dezinformasiyaya qarşı mübarizə və beynəlxalq media əməkdaşlığı kimi aktual məsələlər müzakirə olunub.

İyulun 13-14-də baş tutan IV Şuşa Qlobal Media Forumu “Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması” mövzusuna həsr olunub. Foruma dünyanın 54 ölkəsindən 160-a yaxın media nümayəndəsi, ekspert və rəsmi şəxslər qatılıb. Tədbirdə 30-a yaxın beynəlxalq informasiya agentliyi, 60-dan çox aparıcı media qurumu, eləcə də beynəlxalq təşkilatların nümayəndələri təmsil olunur. Panel müzakirələrdə medianın sülh quruculuğundakı rolu, sərhədlərarası media dialoqu, ictimai etimadın bərpası, dezinformasiyaya qarşı beynəlxalq əməkdaşlıq, rəqəmsal platformalarda təhlükəsiz informasiya mühitinin yaradılması, süni intellekt dövründə media etikası və məsuliyyətli jurnalistika kimi mühüm mövzuların müzakirələri aparılır.

### Mühüm dialoq məkanı...

Yuxarıda sadalanan statistik göstəricilər Şuşa Qlobal Media Forumunun artıq mühüm beynəlxalq platformaya çevrildiyini təsdiqləyir. Azad Şuşadan seçilən mövzularla bağlı dünyaya çox vacib mesajlar verilir və bu mesajlar transmilli mediada geniş şəkildə işıqlandırılır. Həmçinin dünyadakı beyin mərkəzlərinin Şuşa Qlobal Media Forumuna marağı getdikcə artır.

Şuşa Qlobal Media Forumunun artıq ənənəyə çevrilən mühüm xüsusiyyətlərindən biri də Azərbaycan Prezidenti İlham Əliyevin tədbir çərçivəsində yerli və xarici media nümayəndələrinin suallarını açıq formatda cavablandırmasıdır. Forumda dövlətimizin başçısı ilə beynəlxalq media arasında birbaşa dialoq üçün fürsətlər yaranır. Müxtəlif ölkələri və aparıcı media qurumlarını təmsil edən jurnalistlər regionda baş verən siyasi proseslər, Azərbaycanın xarici siyasəti, iqtisadi inkişafı, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri, regional təhlükəsizlik, enerji siyasəti və digər aktual məsələlərlə bağlı suallarını Prezident İlham Əliyevə birbaşa ünvanlayırlar.

Açıq sual-cavab formatı informasiyanın vasitəçilər olmadan çatdırılmasına, jurnalistlərin hadisələr barədə ilkin mənbədən dolğun məlumat əldə etməsinə imkan yaradır. Bu isə Azərbaycanla bağlı obyektiv informasiyanın beynəlxalq auditoriyaya çatdırılmasına, ölkənin mövqeyinin daha geniş şəkildə təqdim edilməsinə xidmət göstərir. Forum çərçivəsində səsləndirilən fikirlər sonradan dünyanın aparıcı media qurumlarında geniş işıqlandırılır, beynəlxalq ekspert dairələrində müzakirə olunur və qlobal informasiya məkanında böyük rezonans doğurur. Prezident İlham Əliyev Forumun artıq beynəlxalq media ictimaiyyəti üçün mühüm dialoq məkanına çevrildiyini vurğulayaraq deyib: “Şuşa Media Forumu artıq ənənəvi xarakter alıb. Ümid edirəm ki, bu ənənə davam edəcək və vaxt keçdikcə qonaqların sayı artır, coğrafi əhatə daha da genişlənir. Bütün bunlar bir daha göstərir ki, ən mühüm mövzuların mehriban şəraitdə açıq müzakirələrinə böyük ehtiyac var. Söhbət təkcə mediadan deyil, həmçinin qlobal gündəlikdən gedir”.

***Mübariz ABDULLAYEV***

# Kolonializmlə mübarizədə medianın rolu...

## BTQ müstəmləkə altında olan ərazilərin media təmsilçilərini bir araya gətirib




Bakı Təşəbbüs Qrupu (BTQ) fəaliyyət göstərdiyi 3 il ərzində dünyanın siyasi gündəmində demək olar ki, unudulmuş kolonializm və neokolonializm problemlərini yenidən gündəmə gətirib, dekolonizasiya prosesinin əsas hərəkətverici platformasına çevrilib. Bu xüsusda müstəqillik uğrunda legitim mübarizə aparan tərəflərə dəstək verilib, kolonizə edilmiş xalqların azadlığı istiqamətində ardıcıl və nəticəyönümlü fəaliyyət göstərilib. Nəticədə müstəmləkəçilikdən əziyyət çəkən xalqların səsi qlobal gündəmə daşınıb, nüfuzlu beynəlxalq platformalarda müzakirə edilib. BTQ-nin ardıcıl və məqsədyönlü fəaliyyəti bu məsələlərin müvafiq mərkəzi hökumətlər səviyyəsində də diqqət mərkəzinə gətirilməsinə töhfə verib. Bu baxımdan Fransada Korsikanın muxtariyyət statusu ətrafında müzakirələrin aktivləşməsi, Yeni Kaledoniyanın gələcək statusu ilə bağlı proseslərin yeni fazaya daxil olması, kolonial idarəçilikdən miras qalmış və “köləlik qanunu” kimi xarakterizə edilən hüquqi mexanizmlərin ləğv edilməsi, keçmiş müstəmləkələrdən oğurlanmış mədəni irsin geri qaytarılması hallarının çoxalması, habelə digər dənizaşırı ərazilərin hüquqi-siyasi vəziyyətinə dair müzakirələrin yenidən gündəmə gəlməsi mühüm irəliləyişlər kimi qeyd oluna bilər.

Ən böyük uğurlar sırasında paytaxtımızda Beynəlxalq Dekolonizasiya Cəbhəsinin - FID (fransızca: Front international de decolonisation) təsis edilməsini göstərmək olar. Beynəlxalq Dekolonizasiya Cəbhəsinin təsis qurultayında Fransa və Niderland müstəmləkəçiliyindən əziyyət çəkən Korsika, Melaneziya, Polineziya, Karib regionu, Antil adaları qrupu, Boneyra və Sen-Martindən olan 17-dən çox siyasi partiya və müstəqillik hərəkatının nümayəndələri iştirak ediblər. Vahid cəbhənin yaradılması kolonizə edilmiş xalqların səylərinin birləşdirilməsi, həmrəyliyin gücləndirilməsi və birgə mübarizə aparması istiqamətində mühüm addımlardan biri kimi yadda qalıb.

Təsadüfi deyil ki, Azərbaycan dünyada kolonializmə qarşı mübarizənin mərkəzi, baş qərargahı kimi tanınır və müstəmləkəçilikdən əziyyət çəkən ərazilər ölkəmizə ümid yeri kimi baxır. Fəaliyyət göstərdiyi üç il ərzində BTQ tərəfindən 40-dan çox beynəlxalq konfrans təşkil edilib, bunlardan 10-u BMT-nin müxtəlif qərargahlarında keçirilib. Eyni zamanda, 50-dən çox nəşr hazırlanıb, 10 əməkdaşlıq memorandumu imzalanıb. Bu dövr ərzində BTQ 25-dən çox ölkə və Dənizaşırı ərazi ilə sıx əməkdaşlıq əlaqələri qurulub.

Yeri gəlmişkən, iyulun 11-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə “Media və dekolonizasiya: Yüksələn səslər, güclənən narrativlər” mövzusunda beynəlxalq konfrans keçirilib. Azərbaycanda ilk dəfə təşkil olunan bu konfrans müstəmləkə ərazilərini təmsil edən xarici media nümayəndələri ilə yerli jurnalistlərin iştirakı və interaktiv müzakirələr formatında keçirilib. Konfransda keçmiş və mövcud müstəmləkə ərazilərini təmsil edən media qurumlarının rəhbərləri, xarici media nümayəndələri, siyasi şərhçilər, diaspor təşkilatlarının təmsilçiləri, media və kommunikasiya üzrə ekspertlər, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, tədqiqatçılar, diplomatlar, dövlət qurumlarının təmsilçiləri və yerli media nümayəndələri iştirak ediblər.

Tədbirdə neokolonial istismara məruz qalan və müstəmləkə əsarəti altında yaşayan xalqların və etnik azlıqların səsinin beynəlxalq informasiya məkanında gücləndirilməsində medianın rolu və qarşıda duran çağırışlar müzakirə olunub. Konfransda uzun illər kölgədə saxlanılan müstəmləkə həqiqətlərinin - ərazilərin iqtisadi istismarı, təbii sərvətlərin talanı, mədəni kimliyin silinməsi, sistemli ayrı-seçkilik, yerli xalqlara qarşı repressiyalar, habelə Kanaki (Yeni Kaledoniya) və Boneyra nümunəsində yerli əhalinin demoqrafik tərkibinin məqsədli şəkildə gəlmə əhali hesabına dəyişdirilməsi siyasətinin beynəlxalq mediada işıqlandırılması məsələlərinə xüsusi diqqət yetirilib. Həmçinin müstəmləkə ərazilərində yaradılan süni informasiya blokadasının aradan qaldırılması, dezinformasiya və saxta məlumatlarla mübarizədə qabaqcıl süni intellekt alətlərinin tətbiqi, jurnalistlər və media qurumları arasında beynəlxalq koordinasiya şəbəkəsinin yaradılması, beynəlxalq media təşkilatları və yerli jurnalistlər arasında əməkdaşlığın gücləndirilməsi ətrafında fikir mübadiləsi aparılıb.



Müzakirələrdə medianın dekolonizasiya proseslərində yalnız informasiya ötürən vasitə deyil, həm də müstəmləkə siyasəti yürüdənlərə beynəlxalq təzyiq mexanizmi kimi rolu xüsusi vurğulanıb. Bu kontekstdə müstəmləkə cinayətlərinin sənədləşdirilməsi, kolonial narrativlərin ifşası, müstəmləkə dövlətlərinin rəsmi informasiya siyasətinin faktlara əsaslanan araşdırmalarla yoxlanılması, yerli xalqların mövqeyinin beynəlxalq auditoriyaya çatdırılması, insan hüquqları pozuntularının monitorinqi, ekoloji ədalət məsələlərinin, o cümlədən Qvadelupa və Martinikada xlordekon pestisidinin yaratdığı fəsadların qlobal gündəmdə daim saxlanılması, reparasiya tələblərinin təşviqi, habelə Kanaki, Maohi, Qvadelupa, Martinika, Boneyra, Sent Martin və digər müstəmləkə ərazilərində fəaliyyət göstərən jurnalistlər, hüquq müdafiəçiləri və vətəndaş cəmiyyəti institutları arasında beynəlxalq həmrəylik və əməkdaşlıq şəbəkələrinin formalaşdırılması istiqamətində praktiki təşəbbüslər müzakirə edilib.

Konfrans çərçivəsində Bakı Təşəbbüs Qrupu ilə Burkina Faso Xarici İşlər Nazirliyinin Qabaqcıl Beynəlxalq Araşdırmalar İnstitutu arasında əməkdaşlığa dair anlaşma memorandumu imzalanıb. Bu sənəd BTQ-nin Afrika istiqamətində institusional əməkdaşlığının genişlənməsində mühüm addım hesab olunur. Təşkilat ilk dəfə xarici dövlətin rəsmi qurumu ilə əməkdaşlığa başlayır. Memorandum Afrika ölkələrinin tədqiqat institutları, beyin mərkəzləri və vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqələrin genişləndirilməsini, dekolonizasiya və neokolonializm mövzularında birgə analitik hesabatların, siyasət sənədlərinin hazırlanmasını və beynəlxalq platformalarda ortaq təşəbbüslərin irəli sürülməsini nəzərdə tutur. Sənədə əsasən, tərəflər müntəzəm dialoqlar, birgə tədqiqat layihələri, beynəlxalq konfranslar, ekspert mübadiləsi və gənc tədqiqatçılar üçün təlim proqramları həyata keçirəcəklər.

Göründüyü kimi, BTQ beynəlxalq qurumlar, akademik dairələr və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığını davamlı şəkildə genişləndirməkdədir. Təşkilatın təşəbbüsü ilə müxtəlif regionlardan olan yerli xalqların nümayəndələri, milli azadlıq hərəkatları, parlament üzvləri, elm xadimləri, beynəlxalq ekspertlər, hüquq müdafiəçiləri və vətəndaş cəmiyyəti institutları bir araya gəlirlər. Bütün bunlar isə qarşıya qoyulan hədəflərə çatmaq üçün vacib amillərdir.

***Nardar BAYRAMLI***

# İqtisadi Şuranın iclasında

## Turizmin, dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair yeni Dövlət Proqramlarının layihəsi müzakirə olunub

İyulun 10-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasında "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın layihəsi, o cümlədən, turizmin inkişaf perspektivləri və əsas prioritet tədbirlər, eləcə də "Dağ-mədən və metallurgiya sənayesinin inkişafı: mövcud vəziyyət və 2030-cu ilə perspektivləri" barədə proqramın layihəsi müzakirə olunub. Gündəlikdə olan birinci məsələ üzrə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin və ikinci məsələdə iqtisadiyyat naziri Mikayıl Cabbarovun geniş təqdimatı dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər. İclasın yekununda gündəlikdə müzakirə olunan hər iki dövlət proqramının layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması barədə qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.



**Turizmin inkişafı üçün yeni təşviqlər veriləcək**

Turizmin inkişafı Azərbaycan hökumətinin diqqətində olan xüsusi strateji sahələrdən biridir. Turizm iş yerlərinin yaradılması, iqtisadi fəallığın artması, ölkənin gəlirlərinin yüksəlməsi və büdcəyə vergi yığımlarının həcminin çoxalmasında mühüm rol oynayır. Son illərdə ölkəmizdə turizm sənayesi inkişaf edərək milli gəlirlərin artmasına öz müsbət təsirlərini göstərməkdədir. Belə ki, 2021-2025-ci illərdə turistlərin yerləşdirilməsi və ictimai iaşə fəaliyyəti sahəsində ÜDM istehsalı hər il orta hesabla 24,5 faiz artaraq 3,6 milyard manata çatıb.

Azərbaycan zəngin sərvətlərə və irsə sahibdir, infrastruktur və nəqliyyat, otel və yerləşdirmə yerləri ən müasir tələblərə uyğundur. Ölkəmizdə viza rejimi də olduqca sadə və əlverişlidir. "ASAN Viza" elektron portalının fəaliyyəti ikitərəfli vizasız gediş-gəliş sazişləri üçün hüquqi istinadlardan biridir və xaricilərə ölkəmizdə 30 günədək qalmaq hüququ verir. Avropa İttifaqına üzv ölkələrin vətəndaşları üçün viza rejimi xeyli sadələşdirilib. Ötən ildən etibarən Çin Xalq Respublikası ilə tətbiq olunan rejimə əsasən, ölkə vətəndaşları 90 günədək müddətə vizadan azad olunublar. Bu amil də turizm üçün mühüm əhəmiyyət daşıyır.

Azərbaycanda turizmə təsir edəcək digər amil - investisiya mühiti də münbit və sağlamdır. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın investisiya vəziyyətini yüksək reytinqlərlə dəyərləndirib. Məsələn, "Fitch Ratings" Azərbaycanın beynəlxalq dərəcəli investisiya reytinqini "BBB-" səviyyəsində təsdiqləyib.

Yəni, turizmin inkişafı üçün imkanlar böyükdür. Ancaq turizmin regionlarda inkişafı hələ də qənaətbəxş səviyyədə deyil, ölkəmizə gələn turistlərin say artımı gözlənilən rəqəmlərdən aşağıdır. Məsələn, 2026-cı ilin yanvar-may aylarında Azərbaycana dünyanın 186 ölkəsindən 871,7 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11 faiz az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Gələnlərin 27,2 faizi Rusiya Federasiyası, 22 faizi Türkiyə, 8,4 faizi İran, 5 faizi Gürcüstan, 4,5 faizi Qazaxıstan, 3,2 faizi Özbəkistan, 2,9 faizi Hindistan, 2,7 faizi Pakistan, 2,3 faizi Çin, 2,0 faizi İsrail, 1,8 faizi Səudiyyə Ərəbistanı, 1,6 faizi Ukrayna, 1,4 faizi Türkmənistan, hər birindən 1,1 faiz olmaqla Almaniya və Böyük Britaniya, 12,8 faizi digər ölkələrin vətəndaşları və vətəndaşlığı olmayan şəxslər olub. Bu, ölkəmizin turizm sənayesi potensialından və mövcud turist yerləşdirmə yerlərinin sayından azdır.

Bu rəqəmləri artırmaq üçün turizm sektorunda yeni təşviqlərin verilməsi nəzərdə tutulur.

**Hədəf turist axınını 5-6 milyon nəfərə çatdırmaqdır**

Ona görə də, turizmin inkişafı üçün yeni hədəflər müəyyənləşib və İqtisadi Şuranın iclasında bu məsələ xüsusi diqqət mərkəzində olub. Turizmin inkişafını təmin etmək və orta müddətdə turist axınını 5-6 milyon nəfərə çatdırmaq məqsədilə yeni Dövlət Proqramı layihəsi hazırlanıb və yaxın günlərdə təsdiq edilməsi nəzərdə tutulur. 2026-2030-cu illəri əhatə edəcək Proqramda müəyyən edilmiş hədəflərə nail olmaq üçün konkret icra mexanizmləri və fəaliyyət planı formalaşdırılıb. Proqram çərçivəsində hava məkanından istifadənin liberallaşdırılması, beynəlxalq hava əlaqələrinin genişləndirilməsinin təşviqi və gəlmə turizm məqsədilə vizasız rejimin tətbiqi əsas prioritetlər sırasında yer alır. Eyni zamanda, regionlarda yerləşən əsas turizm məntəqələrinin nəqliyyat əlçatanlığının artırılması da proqramın mühüm istiqamətlərindən biridir.

Turist axınının stimullaşdırılması məqsədilə Proqram çərçivəsində Azərbaycanın qastronomiya, sağlamlıq, qış və ekoturizm destinasiyası kimi tanıdılması planlaşdırılır. Yeni çimərliklərin yaradılması, Turizm və Rekreasiya Zonalarında investisiyaların artırılması və mikro, kiçik sahibkarlıq subyektlərinin dəstəklənməsi də nəzərdə tutulur. Həmçinin sənaye subyektlərinin təsnifat və uçot sisteminin təkmilləşdirilməsi, turizm sahəsində təhlükəsizlik və keyfiyyət standartlarının gücləndirilməsi, regionlarda əsas turizm məntəqələrinin əlçatanlığının artırılması, turizm bazarlarında təbliğat və sosial media kampaniyalarının genişləndirilməsi proqramın digər vacib istiqamətlərindəndir.

Dövlət Proqramı turizm sahəsinə aid təhsil proqramlarının və müvafiq infrastrukturun inkişafını, Turizm İnformasiya Sisteminin yaradılmasını və tədqiqat layihələrinin dəstəklənməsini də əhatə edir.

**Dağ-mədən sənayesinin inkişafı ixracın genişlənməsinə töhfə verir**

İqtisadi Şuranın iclasında müzakirə olunan digər məsələ "Dağ-mədən və metallurgiya sənayesinin inkişafı: mövcud vəziyyət və 2030-cu ilə perspektivləri"nə dair proqramın layihəsi ilə bağlıdır. Ölkəmizdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi, sənayeləşmənin dərinləşdirilməsi, ixracın strukturunun genişləndirilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Ötən illərdə həyata keçirilən islahatlar nəticəsində alüminium, qızıl, gümüş və misin sənaye istehsalının əsasları formalaşdırılmış, metal filizi ehtiyatlarının bir hissəsi sənayedə istifadəyə yönəldilmişdir. "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə nəcib və əlvan metal yataqları üzrə sənaye hasilatı təşkil edilib, müasir emal infrastrukturu qurulub. Daşkəsən və Gədəbəy rayonlarında filiz emalı müəssisələrinin yenilənməsi, habelə işğaldan azad edilmiş ərazilərdə perspektivli yataqların istismara verilməsi dağ-mədən və metallurgiya sənayesinin istehsal və ixrac imkanlarını genişləndirmişdir. Bununla yanaşı, Qərb Sənaye Parkının yaradılması dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirməyə imkan yaradır.

**Azad ərazilərə xarici sərmayəçilərin cəlb edilməsi**

Hökumət mövcud mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında istehsal əlaqələrinin gücləndirilməsi, infrastruktur və logistika qərarlarının uzlaşdırılması, eləcə də dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində əlavə tədbirlər görülməsini zəruri hesab edir. Qlobal iqtisadiyyatda gedən enerji keçidi və yüksək texnologiyaların inkişafı fonunda metallara tələbatın yüksəlməsi bu sahənin strateji əhəmiyyətini daha da artırır.

Azərbaycanın zəngin mineral ehtiyatları, rəqabətqabiliyyətli enerji təminatı, sənaye təşviqi mexanizmləri və



Orta Dəhliz üzərində yerləşməsi əlaqəli sənaye sahələrinin də dayanıqlı inkişafı üçün əlverişli şərait yaradır. Bu baxımdan ölkədə dağ-mədən və metallurgiya sənayesinin xammaldan son məhsula qədər dəyər zənciri üzrə inkişafının sürətləndirilməsi, mineral resurslardan səmərəli istifadə olunması və yüksək əlavə dəyər yaradan metal emalının genişləndirilməsi, habelə metallurgiya məhsullarının ixrac potensialının artırılması məqsədilə əhatəli tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Yeni hazırlanan Dövlət Proqramı layihəsi dağ-mədən və metallurgiya sənayesinin inkişafını artırmaq məqsədilə həmin sektorun modernləşdirilməsini, investisiya cəlbediciliyinin artırılmasını və illik hasilatın milyardlarla manata çatdırılmasını hədəfləyir. Proqramda strateji sahələrdən biri kimi işğaldan azad edilmiş ərazilərdəki dağ-mədən və metallurgiya sənayesinin inkişafını təşviq edən stimullaşdırıcı alətlərin tətbiqi, xarici sərmayədarlarla birgə işlərin aparılması və digər addımlar da nəzərdə tutulur.

Beləliklə, İqtisadi Şuranın iclasında müzakirə olunan istiqamətlər üzrə növbəti addımların atılması qarşıya qoyulan hədəflərə çatmağa, o cümlədən, turizmin və dağ-mədən sənayesinin inkişafına, həmin sahələrin iqtisadi inkişafda rolunun daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

*E. CƏFƏRLİ*

# Altı ölümün öldürdüyü tək adam

## Edqar Allan Ponun yaradıcılığı haqqında

Adını verməyən lirik qəhrəman Lenor adlı sevgilisinin vaxtsız-vədəsiz itkisini unutmaq üçün bir dekabr axşamı pəncərənin qarşısında oturub qədim kitablara dalır. Bu vaxt qapı döyülür. Adam bir xeyli tərəddüddən sonra qapını açanda qarşısında zülmət gecədən başqa heç nə görmür. Qayıdıb yerini rahatlayandan sonra bu səfər də pəncərə tıqqıldayır. Təhkiyəçi pəncərəni açmaqla bir qarğa saymazyana içəri dürtülüb, qədim Yunanıstanın ən hörmətli, nüfuzlu tanrılarından olan ilahə Palladanın qapının başındakı büstünün çiyninə qonur. Lirik qəhrəman quşdan adını soruşur, qara qarğa bircə kəlmə "Nevermore" (bir də heç vaxt, dünyasında, əbədən) deməklə kifayətlənir. Adam quşun danışmağına heyrətlənsə də, qarğa "heç bir vaxt"dan savayı söz bilmir, onun bütün suallarını tək kəlmə "nevermore" deyib cavablayır. Lirik qəhrəman bu quşun Allah elçisi olduğunu, dərdini ona unutdurmaq üçün göndərildiyini düşünür, ancaq qarğa nakam aşiqin gümanını daşa çaxıb deyir ki, sevgilisi Lenorun xatirəsini o "heç bir vaxt" unuda bilməyəcək. Nəhayət, təhkiyəçi ürəklənib quşdan soruşur: göylər səltənətində bu zavallı, dərdli aşiq sevimli Lenoruna qovuşa biləcəkmi? Qarğanın son suala da cavabı qəti olur: heç bir vaxt!

Bu, böyük Amerika ədibi Edqar Allan Ponun on səkkiz bəndlik, yüz səkkiz misralıq (hər bənd altı misradan ibarətdir) "Qarğa" şeirinin qısa məzmunudur. Edqar Po ədəbiyyat aləmində daha çox hekayə, novella ustası kimi tanınsa da, onun əlini böyük şöhrətə çatdıran məhz bu şeir olub. Bir məktubunda müəllif özü təvazökarlığı qırağa qoyub "Qarğa"nı dünya poeziyasının o vaxtacan misli görünməmiş örnəyi saydığını bildirmişdi. "Nevermore" bu uzun şeirin rədifidir, şair qarğanın qarıltısını həmin sözə bənzətməklə adi kəlməyə fəlsəfi anlam yükləyib. Şeir Edqar Po yaradıcılığının epiqrafı, müqəddiməsi, hətta himni sayıla bilər, hərçənd 1845-ci ilin yanvarında işıq üzü görmüş "Qarğa"nı qələmə alana qədər yazıçı sonralar bütün dünyanı dolaşası şedevrlərinin çoxunu artıq yazmışdı. Üstəlik, bu şeiri müəllifin avtobioqrafik diaqnozu, xəstəlik tarixçəsi, yaşantılarının epikrizi kimi də oxumaq olar; on dörd yaşı tamam olmamış özünə gəlin gətirdiyi qohumu Virciniya onda hələ sağıydısa da, əcəl artıq birinci zəngini çalıb anonsunu verməşdi, gəlinin vərəmli ciyərinin qanı maskası yırtılmış qırmızı ölümü fələyin xəfiyyəsitək artıq ifşa eləmişdi.

Qara torpaqdan rəng almış, gecənin içindən gəlmiş qara qarğa bədlik, nəhslik, uğursuzluq rəmzidir. Qara qanadlı qarğa qarı fələyin qara donlu elçisi, iblisin qaranlıq səltənətinin qaraxəbər sözçüsü, diriləri diri-diri heçliyə gömən sonsuz zülmətin, tükənməz yoxluğun, əbədi ölümün amansız edam hökmünü dimdiyində daşıyan carçısıdır. Bu bədbəxt qara quşun şairin can evində peyda olması həm şifahi, həm də yazılı ədəbiyyatın təsiri altında baş verib, fəqət bunlardan da qat-qat ötəsi müəllifin qorxuları, qarabasmaları, ölümə, heçliyə xof qarışıq güclü bir ehtirasla bağlanmasıdır. Şeirin sonunda şair Palladanın çiynindən baxan qarğanı yuxulu şeytana bənzədir, onun çıraq işığında döşəməyə sərilmiş vahiməli kölgəsinə diqqət yönəldir. Lirik qəhrəman əmindir ki, onun ruhu bu kölgənin çənbərindən "bir də heç vaxt" çıxmayacaq, çıxa bilməyəcək.

Bəri başdan deyək ki, elə də oldu. Cəmi qırx illik ömrünü Edqar Po ölümün amansız təqibi, iblisin itilənmiş baltası altında yaşadı. Onun zavallı ruhu yalnız qələmə dil verəndə müvazinətini qoruyur, canına müsəllət olmuş cinlər yalnız o can yaradıcılıq əhvalına girəndə iynə görmüş kimi qaçıb dağılışır, burulğantək bulanan zehni yalnız yazı masası arxasında dinclik tapırdı. Qara qarğanın gətirdiyi "müjdə" çox yox, dörd-beş ildən sonra çin çıxdı, fələk ona elə bir tor toxudu ki, ölümünün sirri bu günəcən çözülməyib, belə görünür, "heç bir vaxt" da çözülməyəcək. Heç bir vaxt - nevermore!

***

Edqar Allan Po yeni dövr ədəbiyyatında həm detektiv janrının, həm də psixoloji nəsrin banisi sayılır. Onun bəzi hekayələri elmi fantastikanın, fəlsəfi macəraçılığın formalaşmasına təkan verib. İndi novella adlandırdığımız janrın da inkişafında Ponun əvəzsiz rolu var. Onun dəhşət doğuran "qorxulu" hekayələri on doqquzuncu əsrin ikinci, iyirminci əsrin birinci yarısında sənət meydanını ələ keçirmiş dekadentizm cərəyanını xeyli qabaqlamışdı. Onun ədəbi görüşlərinin təsirinə kimlər, kimlər düşməmişdi - Bodler, Dostoyevski, Zolya, Mopassan, Konan Doyl, Verlen, Mallarme, Blok, Meterlink, Kuprin, Merejkovski, Bryusov, Balmont, Nabokov, Borxes, Kortasar, Kinq... saymaqla bitməz. Bodler onun poeziyasını fransızcaya çevirməyə illərini həsr eləmişdi, Avropa böyük ədibi ilk növbədə Bodlerin tərcümələri sayəsində tanımışdı. Çexov, Andreyev, Hamsun, Coys, Kafka, Akutaqava, Laqerkvist, Sartr, Bussati, Rulfo, Abe kimi dahilər Edqar Ponun ruh əkizləriydi.

Onun yazdığı detektiv novellalar da fəlsəfi-psixoloji mahiyyət daşıyırdı. Bütün böyük yazıçılar kimi Edqar Po da dualist idi, insan varlığını cənnətə-cəhənnəmə ayırırdı. Yazıçıya görə, insanın mübhəm irrasional istəkləri, qorxuları, ehtirasları onun cəhənnəmi, bütün bunlardan xilas olmağa yardım göstərən sağlam düşüncə, mənəviyyata söykəli rasional məntiq isə onun cənnəti, həyat adlı amansız okeanın quduz dalğalarından sığındığı qurtuluş adasıdır. Bu adadan okean yaxşı görünür, oradan həyatı Şopenhauer sayağı arxayın seyrə dalıb dalğaların təbiətini öyrənmək də nisbətən asan olur.

Belə bir adada məskən salmış obrazlardan biri "Morq küçəsində qətl" (1841) hekayəsinin qəhrəmanıdır. Mütəxəssislər bu hekayəni ədəbiyyat tarixində ilk detektiv əsər sayırlar. Hekayədə biz adını bilmədiyimiz təhkiyəçinin təqdimatında Ogüst Düpen adlı müflisləşmiş gənc aristokratla tanış oluruq. Misilsiz analitik mühakimə qabiliyyətinə yiyələnmiş Düpen asketik həyat sürür, qənaətlə yaşayır, gündüzlər evinin pərdələrini çəkib qaranlıqda oturur, "Qarğa"nın lirik qəhrəmanı kimi kitablara dalır, gecələr düşmənin arxasına keçən kəşfiyyatçıtək gözünü qaranlığa alışdırır, elə həmin bəduğur qarğa sayağı həyata zülmətin bətnindən doğulur. Konan Doylun Şerlok Holmsu da, Aqata Kristinin Erkül Puarosu da Edqar Ponun üç novellasının qəhrəmanı Düpenin şinelindən çıxıb.

Düpen ağıl, məntiq təcəssümüdür, fəlsəfi təfəkkürü, stoik təmkini ona ən qəliz konfliktlərdən, ən müəmmalı cinayətlərdən düzgün baş çıxarmağa imkan verir. Bu gənc zahid tam müstəqil adamdır, hökumətə, polisə işləmir, sifariş yerinə yetirmir, əksinə, hökumət özü ona möhtacdır, odur ki, baş verənlərdən obyektiv nəticə çıxara bilir. Onun ruhun diktəsiylə çalışan beyni birbaşa obyektivliyin mənbəyindən qidalanır. Həqiqətən, obyektivlik, dürüstlük allah vergisi, tanrı nemətidir. Nə deməkdir tanrı neməti? Yəni bu uca keyfiyyət, ilahi nemət min üzlü ehtirasımızın, min rəngli qorxumuzun, min dadlı tamahımızın, min adlı xofumuzun yox, bir üzlü, bir rəngli, bir dadlı, bir adlı ruhumuzun məhsuludur.

Qəzetlər Parisin Morq küçəsində törədilmiş dəhşətli qətldən yazır. Qatil beşinci mərtəbədə yaşayan dul qadınla qızını qətlə yetirəndən sonra izini itirib. Qonşular səs-küyə qapını qırıb içəri girəndə evdən bir cüt meyitdən savayı heç nə tapmayıblar. Ananın boğazı ülgüclə kəsilib, qızının meyidi buxarıya dürtülüb. Otaqdakı mebellər qırıqlanıb, qanlı ülgüc stulun üstünə atılıb. Hadisədən əvvəl mənzildə nəsə qızğın mübahisə getdiyini eşitmiş şahidlərin gümanınca, qətli törədən bir yox, iki nəfər olub, həm də ikinci qatil fransızca yox, ayrı bir dildə danışırmış - iş bu yerə dirənəndə hər şahid bilmədiyi bir dilin adını çəkir.

davamı növbəti sayımızda



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# İsmayıl bəy Qutqaşınlının doğum günüdür...




Azərbaycanın ictimai fikir tarixində elə şəxsiyyətlər var ki, onların ömür yolu təkcə yaşadıqları dövrün hadisələri ilə məhdudlaşmır, əksinə, zaman keçdikcə onların fəaliyyəti daha dolğun məna qazanır. Belə simalardan biri də 19-cu əsr Azərbaycan ədəbiyyatının və maarifçilik hərəkatının görkəmli nümayəndəsi, yazıçı, hərbçi və ictimai xadim İsmayıl bəy Qutqaşınlıdır. Onun adı Azərbaycan mədəniyyətinin inkişaf salnaməsində xüsusi ehtiramla çəkilir.

İsmayıl bəy Qutqaşınlı 14 iyul 1806-cı ildə keçmiş Qutqaşın mahalında (indiki Qəbələ) anadan olub. Bu gün mərhum yazıçının anadan olmasında 220 il ötür. O, uşaqlıq və gənclik illərində dini təhsil alıb, ərəb, fars dillərini öyrənib, klassik Azərbaycan və Şərq ədəbiyyatı ilə yaxından tanış olub. Sonradan hərbi xidmət illərində İ. Qutqaşınlı bir sıra mütərəqqi rus ziyalıları ilə dostluq əlaqəsi yaradıb, rus və Qərbi Avropa mədəniyyətləri ilə tanış olub. O, Azərbaycanın böyük marifçi alimləri - Mirzə Fətəli Axundov, Qasım bəy Zakir, Abbasqulu ağa Bakıxanov və başqaları ilə yaxından dostluq edib.

Ömrü boyu doğma xalqının səadəti, maariflənməsi, mədəni yüksəlişi uğrunda çarpışan İsmayıl bəy eyni zamanda yorulmaz səyyah idi. O, müsəlman Şərqini gəzib, gördüklərini əsl alim kimi yanaşıb, olduğu ölkələr, şəhərlər haqqında geniş məlumatlar hazırlayıb.

Ədəbiyyatımızda xüsusi yeri olan İsmayıl bəy Qutqaşınlı “Miskin” təxəllüsü ilə şeirlər də yazıb. Təəssüf ki, onun əlyazmaları 1930-cu illərdə repressiya dövründə məhv edildiyindən bizə gəlib çatmayıb. Ancaq ona aid olduğu iddia edilən və 1973-cü ildə aşkarlanan “İki quşun söhbəti” adlı şeiri çox maraqlıdır.

Onun “Rəşid bəy və Səadət xanım” hekayəsi həm ideya məzmunu, həm də üslubu etibarı ilə Azərbaycan nəsri tarixində realizmə doğru meylin gücləndiyini göstərən ilk mühüm əsərlərdəndir. Hekayənin qəhrəmanı Rəşid bəy görüşləri, hissləri və əməli ilə xalqa yaxın və bağlı olan ziyalıların real bədii surətidir. O, hər şeydən əvvəl, öz vətəninə, içərisindən çıxdığı mühitə və zəmanəsinə uyğun olan gəncdir. Rəşid bəyin gözəl xüsusiyyətlərindən biri onun savadlı, bilikli və mədəni bir gənc olmasıdır. Onun arzusu vardı: bütün məşhur igidlərə qalib gəlmək və bütün zəiflərə, yoxsullara kömək etmək. Rəşid bəy igidliyi, şücaəti yalnız tüfəng atmaqda, at oynatmaqda görmür. Bu ona vətənini müdafiə etmək üçün lazımdır. Rəşid bəyin fikirləri, bir insan olaraq mənəvi məziyyətləri onun ata və anasına, doğma yurduna, qadına bəslədiyi münasibətlərdə təzahür edir. Rəşid bəy fəaliyyətinin çoxunu vətənini çapıb-talayan və əkinçiləri incidən quldurlarla çarpışmada keçirərdi.

İsmayıl bəyin bu əsəri qələmə almaqda məqsədi Azərbaycan mühitinin təsvirilə onda ailə həyatı və məişəti haqqında təsəvvür yaratmaq olub. Başlıca ideyası azad sevgi və qadının cəmiyyətdə azadlığı olan istər kübar, istər yoxsul ailələrdə insani münasibətləri incəliklə təsvir edən orijinal nəşr nümunəsidir. Müəllifin özünün çılğın təbiəti onun qəhrəmanlarına da hopub. “Rəşid bəy və Səadət xanım” yazıldığı dövrün etnoqrafiyası haqqında da zəngin məlumat verir. 19-cu əsrin birinci yarısı Azərbaycan məişəti burada elə canlı və inandırıcı təsvir olunur ki, ondan tarixi bir sənəd kimi də faydalanmaq mümkündür.

İsmayıl bəyin vətənimizə olan xidmətləri çoxşaxəlidir. O, hərbimizə olan xüsusi xidmətləri ilə yanaşı, ədəbiyyatımıza da gözəl töhfələr bəxş edib. Sağlığında böyük hörmət-izzət sahibi olan, qayğıkeş və mərd insan kimi tanınan İsmayıl bəy Qutqaşınlı 14 avqust 1861-ci ildə vəfat edib.

***Yeganə BAYRAMOVA***

# Yayın arzuolunmaz “qonaq”ları...

## Kiçik həşərat dişləməsi böyük təhlükələr yarada bilər

Yay fəslinin gəlişi ilə insanlar daha çox açıq havada vaxt keçirməyə, parklara, meşəlik ərazilərə, bağ evlərinə, dəniz sahillərinə üz tutmağa başlayırlar. Lakin isti hava şəraitinin yaratdığı istirahət əhval-ruhiyyəsi ilə yanaşı, təbiətin görünməyən, bəzən ciddi sağlamlıq problemlərinə səbəb ola bilən sakinləri - ağcaqanadlar, milçəklər və digər həşəratlar da aktivləşir. Bu da yay mövsümündə həşərat dişləmələrinin sayının nəzərəçarpacaq dərəcədə artmasına səbəb olur. Əksər insanlar bunu adi hal kimi qiymətləndirsələr də, bəzi hallarda sadə görünən bir dişləmə infeksiya, ağır allergik reaksiya, hətta həyati təhlükə yaradan vəziyyətlərlə nəticələnə bilər.

Mütəxəssislər bildirirlər ki, həşərat dişləməsinin təhlükəli olub-olmamasını müəyyən edən əsas göstəricilərdən biri yaranın ölçüsü deyil, orqanizmin verdiyi reaksiyadır. Çünki dişləmə yerində sürətlə böyüyən şişkinlik, dözülməz ağrı, irinləmə, yüksək hərarət, səpkilərin bütün bədənə yayılması, nəfəs darlığı, ürəkbulanma, başgicəllənmə və ya huşun bulanması kimi əlamətlər müşahidə edilərsə, vaxt itirmədən tibb müəssisəsinə müraciət olunmalıdır.

**Ağcaqanad dişləməsi sadəcə qaşınma deyil**

Mövzu barədə fikirlərini “Yeni Azərbaycan”la bölüşən infeksionist-həkim Mərdan Əliyev bildirib ki, yay aylarında havanın temperaturunun yüksəlməsi və rütubətin artması həşəratların çoxalması üçün ən əlverişli mühit yaradır: “Çünki onların bioloji inkişaf dövrü sürətlənir, qidalanma ehtiyacı artır və insanlar daha çox açıq bədən nahiyələri ilə təbiətdə olduqları üçün həşəratlarla təmas ehtimalı da əhəmiyyətli dərəcədə yüksəlir. Nəticədə hər il milyonlarla insan müxtəlif növ həşərat dişləmələrinə məruz qalır və onların böyük hissəsi yüngül əlamətlərlə keçsə də, müəyyən risk qruplarında vəziyyət fərqli inkişaf edə bilir.

Ən çox rast gəlinən həşəratlardan biri olan ağcaqanadlar adətən qaşınma, qızartı və yüngül şişkinlik yaratsa da, bəzi ölkələrdə müxtəlif virus xəstəliklərinin daşıyıcısı hesab olunur. Buna görə də xüsusilə, xarici ölkələrə səyahət edən insanlar həşəratlardan qorunma qaydalarına daha ciddi əməl etməlidirlər. Belə ki, infeksiyaların yayılmasında həşəratların vasitəçi rolu dünya səhiyyəsində uzun illərdir diqqət mərkəzində saxlanılır”.

**Ağrısız olsa da təhlükəli xəstəlik daşıya bilər...**

Həkim qeyd edib ki, gənələr yay mövsümündə xüsusilə, meşəlik, kol-



luq və otlu ərazilərdə təhlükə yaradan canlılar hesab olunur: “Onların dişləməsi çox zaman ağrısız keçdiyi üçün insan bunu dərhal hiss etmir. Məhz buna görə də təbiətdə gəzintidən sonra bədənin, xüsusilə qoltuqaltı, qasıq nahiyəsi, boyun, qulaq arxası və diz büküşlərinin diqqətlə yoxlanılması vacibdir. Çünki gənənin uzun müddət dəridə qalması müxtəlif infeksiyaların ötürülməsi riskini artıra bilər”.

**Kimlər daha çox risk altındadır?**

M.Əliyevin sözlərinə görə, xüsusilə uşaqlar, yaşlı insanlar, hamilə qadınlar, şəkərli diabetlər və immun sistemi zəif olan xəstələr həşərat dişləmələrinə qarşı daha həssas hesab olunurlar: “Onların orqanizmi həm infeksiyalara, həm də allergik ağırlaşmalara qarşı daha zəif müqavimət göstərə bilir. Bu səbəbdən həmin şəxslərin profilaktik tədbirlərə xüsusi diqqət yetirmələri vacibdir.

Həşərat dişləməsindən sonra qızartının sürətlə böyüməsi, irinli axıntının yaranması, yüksək hərarət, titrətmə, şiddətli ağrı, dəridə göyərmə, səpgilərin bütün bədənə yayılması, nəfəs almaqda çətinlik və ya ümumi vəziyyətin pisləşməsi artıq adi dəri reaksiyası deyil. Bu, infeksiyanın və ya ciddi allergik prosesin başlanğıcından xəbər verə bilər. Belə hallarda ev şəraitində müalicə ilə kifayətlənmək təhlükəli nəticələr doğura bilər”.

**Sadə qaydalar böyük təhlükələrin qarşısını alır**

İnfeksionist bildirib ki, yay aylarında sadə görünən qoruyucu tədbirlər əslində ən təsirli profilaktik vasitələr hesab olunur: “Açıq rəngli və uzunqollu geyimlərin seçilməsi, həşərat əleyhinə qoruyucu vasitələrdən istifadə edilməsi, axşam saatlarında bataqlıq və sıx kolluq ərazilərdə uzun müddət qalmamaq, evlərdə pəncərələrə tor çəkilməsi, ətraf mühitdə durğun suların aradan qaldırılması və tullantıların vaxtında təmizlənməsi həşəratların çoxalmasının qarşısını əhəmiyyətli dərəcədə ala bilir.

Unutmaq olmaz ki, həşəratlar təbiətin ayrılmaz hissəsi olsa da, insan sağlamlığı baxımından onların yaratdığı risklərə laqeyd yanaşmaq düzgün deyil. Bəzən bir neçə saniyə davam edən dişləmə və ya sancma sonradan uzunmüddətli müalicə tələb edən problemlərə çevrilə bilər. Ona görə də yay mövsümündə həm şəxsi gigiyena qaydalarına riayət etmək, həm də ilk baxışdan əhəmiyyətsiz görünən əlamətlərə diqqətlə yanaşmaq sağlamlığın qorunmasının ən etibarlı yollarından biri hesab edilir”.

***Yeganə BAYRAMOVA***

*İdman*

## Braziliyalı voleybolçu “Gəncə” klubunda

“Gəncə” komandası yeni voleybolçu transfer edib. Bölgə təmsilçisindən AZƏRTAC-a bildirilib ki, braziliyalı voleybolçu Ariadne Ramosla müqavilə imzalanıb. Braziliya və Peruda çıxış etmiş təcrübəli oyunçunun son klubu vətənində “ASV Hornets” komandası olub.

Qeyd edək ki, “Gəncə” daha əvvəl Leyla Parşkova, Ellen Luvizetti Lakava, Militsa Vukoviç və Olena Napalkova ilə də müqavilə bağlayıb. Bundan əlavə, Mellisa Rangel ilə əməkdaşlığın müddəti uzadılıb.




## “Qəbələ” 5 yoxlama oyunu keçirəcək

“Qəbələ”nin yay təlim-məşq toplanışında keçirəcəyi yoxlama oyunları məlum olub. Klubdan AZƏRTAC-a verilən məlumata görə, “qırmızı-qaralar” hazırlıq müddətində 5 matçda meydana çıxacaq. İlk görüş iyulun 14-də “Kəpəz”ə qarşı olacaq. Daha sonra iyulun 19-da “Sumqayıt”, 25-də “Şəfa”, 31-də “İmişli” və avqustun 4-də “Şamaxı” ilə matçlar planlaşdırılır.

Qeyd edək ki, yalnız “Sumqayıt”la oyun səfərdə keçiriləcək. Digər görüşlər Qəbələdə təşkil olunacaq.



## İsveçrəli futbolçu: Azərbaycandan, onun mədəniyyətindən və mətbəxindən zövq alırıq

Azərbaycanda qaldığım üçün çox şadam. “Qəbələ” möhtəşəm stadionu, infrastrukturu və gözəl şəhəri olan tarixi klubdur.

Bu sözləri AZƏRTAC-a açıqlamasında “Qəbələ”nin yeni transferi Kərim Rossi deyib. İsveçrəli hücumçu bildirib ki, həm Azərbaycandan, həm də xarici klublardan təklifi olsa da, sonda “qırmızı-qaralar”ı seçib: “Qəbələ”nin təqdim etdiyi 2 illik layihə daha inandırıcı göründü və burada mənə olan etimadı tam hiss etdim. Buna görə də bu seçimi etmək mənim üçün çox asan oldu. Ailəmlə birlikdə Azərbaycandan, buranın insanlarından, mədəniyyətindən və mətbəxindən zövq alırıq. Ümid edirəm ki, burada uzun müddət çıxış edəcəyəm”.

Forvard ötən mövsüm “Şamaxı”dakı uğurlu çıxışını yeni klubunda da davam etdirmək niyyətində olduğunu vurğulayıb: “Statistika baxımdan ötən mövsüm karyeramın ən yaxşı dövrü oldu. İndi isə ondan da yaxşı nəticə göstərməyə ümid edirəm. Hər gün öyrənmək və özümü təkmilləşdirmək üçün buradayam. “Qəbələ”də də eyni və ya daha yaxşı performans nümayiş etdirmək üçün əlimdən gələni edəcəyəm”.



Rossi komandanın hədəflərinə və çempionatdakı rəqabətə də toxunub: “Əsas məqsədimiz “Qəbələ”ni ötən mövsümlə müqayisədə daha yaxşı mövqeyə daşımaqdır və mən də kluba bu hədəfə çatmaqda kömək etmək üçün buradayam. Bu klub turnir cədvəlində daha yüksək yerlərə layiqdir. Azərbaycan Premyer Liqası çətin çempionatdır və inanıram ki, bu mövsüm rəqabət daha da güclü olacaq. Ümid edirəm ki, bu mövsüm turnirin sürpriz komandası olacağıq”.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4432
Sifariş: 906
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova